www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27-29 aprel 2024-cü il Şənbə № 72 (8445) Qiymәti 60 qəpik

**Xəbər**

## Azərbaycan üçün kritik tarix - gələn ilin ilk aylarında...

yazısı səh.8-də

**Gündəm**

### Neft qiymətləri 100-130 dollara olarsa... - təhlil



**Ekspert:** "Qlobal iqtisadiyyat buna dözəcək potensialda deyil"

yazısı səh.11-də

### İrəvan Bakıdan sülh müqaviləsi ilə bağlı növbəti təklifləri alıb

yazısı səh.3-də

### Bakının keçilməz "qırmızı xətti" - Ermənistan konstitusiyası dəyişməlidir!

yazısı səh.9-da

### Rüsumu artırmaqla boşanmaların sayını azaltmaq mümkündürmü? - rəy

yazısı səh.13-də

### Aprel işğalı - 1 ildə 48 min azərbaycanlı qətlə yetirilib

yazısı səh.7-də

### Ermənistanın sülhə qarşı "hərbi balans" bəhanəsi - Bakıdan reaksiya

yazısı səh.6-da

### Bütün ailəsini məhv edən Əhməd varəsə ola bilməyəcək

yazısı səh.13-də

### İrəvanın Bakıdan qaz(lı) istəyi - nə vaxt və hansı qiymətə...

yazısı səh.10-da

*Hərbi prokuror:*

### "Qəsdən adam öldürmə cinayətləri 50, özünü öldürmə hadisələri 40 faiz azalıb"

yazısı səh.12-də

### Rusiya və Qərbə "heç-heçə" təklif edildi - Ukrayna müharibəsi bitir?

yazısı səh.14-də

# PREZİDENT ALMANİYADA MÜHÜM MESAJLAR VERDİ - SÜLH GÜNDƏLİYİ...

Dövlət başçısı "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində vacib bəyanatlar səsləndirdi, kansler Şoltsla, Prezident Ştaynmayerlə görüşdü; analitiklər Fransanın itirdiyi şansları Almaniyanın qazandığı qənaətindədirlər



yazısı səh.5-də

# Ağdamdakı Birgə Monitorinq Mərkəzi də tarixə qovuşdu

Mərkəzin fəaliyyəti rəsmən dayandırıldı; ölkəmizin ərazisində bütün nəzarəti dövlətimiz tamamilə özü həyata keçirir

yazısı səh.7-də



*Azər Badamov:*

### "Avroparlament nə qədər qışqırsa da, Aİ-nin enerji təhlükəsizliyi Azərbaycandan asılıdır"

yazısı səh.4-də



*Novella Cəfəroğlu:*

### "Yeni rəhbərlik Naxçıvanın çiçəklənməsini istəyirsə..."

yazısı səh.12-də



*Ceyhun Məmmədov:*

### "İranda səfirliyin fəaliyyətinin bərpa edilməsi ilə bağlı ciddi müzakirə aparılır"

yazısı səh.3-də



## Ərdoğan Niderland Baş naziri ilə görüşdü

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Niderland Baş naziri Mark Rutte ilə görüşüb.**

APA xəbər verir ki, bu barədə Türkiyə Prezidentinin Ofisi məlumat yayıb.

Görüş Niderland Baş nazirinin Türkiyəyə səfəri çərçivəsində baş tutub.



## Nazir müavininin aldığı rüşvətin məbləği açıqlandı

**Rusiya müdafiə nazirinin müavini Timur İvanova verilən rüşvət 1,185 milyard rubl təşkil edib.**

Modern.az xəbər verir ki, bu barədə Rusiya KİV-i hüquq-mühafizə orqanlarındakı mənbələrə istinadən məlumat yayıb.

"Ümumilikdə, müdafiə nazirinin müavininin aldığı rüşvətin məbləği, müstəntiqlərin hesablamalarına görə, 1,185 milyard rubl təşkil edib.

Eyni zamanda, onun korrupsiya gəliri on dəfə çox ola bilər", - "Kommersant" yazıb.

Xatırladaq ki, İvanov aprelin 23-də korrupsiya cinayəti törətməkdə şübhəli bilinərək həbs edilib. O, Rusiya Federasiyası Cinayət Məcəlləsinin 290-cı maddəsinin xüsusilə külli miqdarda rüşvət almaya aid 5-ci hissəsi ilə ittiham olunur.

Müdafiə naziri Sergey Şoyqu artıq onu tutduğu vəzifədən uzaqlaşdırıb.

Bundan əlavə, məhkəmə İvanovun əmlakına və maliyyə resurslarına həbs qoyub.

İş çərçivəsində təhlükəsizlik qüvvələri tərəfindən bir sıra ünvanlarda əməliyyat-istintaq tədbirləri, o cümlədən axtarışlar aparılır.



## Ceyranbatan kanalında batdığı ehtimal olunan 13 yaşlı uşağın axtarışları davam edir

**Aprelin 20-də Ceyranbatan su kanalının Sumqayıt şəhərinin "Stansiya Sumqayıt" adlanan ərazisindən keçən hissəsində batdığı ehtimal olunan 2011-ci il təvəllüdlü Əliyev İbrahim Samir oğlunun axtarışları Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti və Sumqayıt Regional Mərkəzinin qüvvələri tərəfindən davam etdirilir.**

APA xəbər verir ki, bu barədə FHN Mətbuat xidmətinin məlumatında deyilir.

Məlumata görə, hazırda yeniyetmənin batdığı ehtimal edilən istiqamətlər üzrə, o cümlədən kanalın Ceyranbatan su anbarı ilə birləşən hissəsində axtarışlar intensiv şəkildə həyata keçirilir.

Əlavə məlumat veriləcək.

# Türk dövlətləri parlamentlərinin komitə sədrləri Xankəndi və Şuşada olublar



**Aprelin 26-da Azərbaycanda səfərdə olan Türk dövlətləri parlamentlərinin Xarici əlaqələr komitələrinin sədrləri Xankəndi şəhərinə gəliblər. Qonaqlar Xankəndi şəhəri ilə tanış olublar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən xəbərə görə, sonra Şuşaya gələn qonaqlar Mərkəzi Meydan, Yuxarı Gövhərağa məscidi ilə tanış olublar, Qala divarlarını və Xan qızı bulağını seyr ediblər. Qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və Şuşada cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, şəhərdəki tarixi abidələrin bərpası və nəzərdə tutulan planlar barədə məlumat verilib.

Sonra qonaqlar Cıdır düzünə gəliblər. Bildirilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxmış, canları və qanları bahasına Şuşanı işğaldan azad etmişlər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirilməsi məkanına çevrilib.

Səfər zamanı qonaqları Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və digər deputatlar müşayiət ediblər.



## Bu yolda hərəkət məhdudlaşdırılır

**Aprelin 27-də 09:00-dan 28 aprel 22:00-dək Bakı şəhəri, Nizami rayonu Elşən Süleymanov küçəsində (Bəhruz Nuriyev küçəsindən Cəmşid Naxçıvanski küçəsinədək olan hissədə) aparılacaq təmir işləri ilə əlaqədar nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.**

Modern.az xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yayıb.

"Sürücülərdən qeyd olunan saatlarda sözügedən hissədə hərəkətdə olarkən diqqətli olmaları, yol hərəkəti qaydalarına riayət etmələri və ərazidə quraşdırılmış müvəqqəti yol nişanlarının tələblərinə uyğun avtonəqliyyat vasitələrini idarə etmələri xahiş olunur", - deyə məlumatda qeyd edilib.

## Argentina iranlı nazirin həbsi üçün hərəkətə keçdi




**Argentina İnterpoldan İranın daxili işlər naziri Əhməd Vəhidini 1994-cü ildə Buenos-Ayresdəki yəhudi mərkəzinə edilən bombalı hücuma görə həbs etməsini istəyib.**

Musavat.com "Haber Global"a istinadən xəbər verir ki, bu barədə Argentina Xarici İşlər Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, Vahidi hazırda Pakistan və Şri-Lankaya səfər edən Tehran nümayəndə heyətinin tərkibindədir və Argentinanın tələbi ilə İnterpol onun həbsi ilə bağlı qırmızı xəbərdarlıq edib.

Xarici İşlər Nazirliyinin bəyanatında deyilir: "Argentina 1994-cü ildə 85 nəfərin ölümünə səbəb olan AMİA (yəhudi mədəniyyət mərkəzi) hücumuna görə məsuliyyət daşıyan və hələ də cəzasız olaraq vəzifələrini davam etdirən şəxslərin beynəlxalq səviyyədə həbsini tələb edir".

Argentina daha əvvəl bəyan edib ki, İran İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) keçmiş yüksək rütbəli üzvü Əhməd Vahidi AMİA-ya bombalı hücumu planlaşdıranlardan biri olub.

❑ **Musavat.com**

## Azərbaycan və Ermənistan sərhədində nəzərdə tutulan işlərin təxminən 35 faizi yerinə yetirilib

**Azərbaycanla Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin təxminən 35 faizi 2024-cü il aprelin 26-dək yerinə yetirilib, 28 sərhəd dirəyi quraşdırılıb.**

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin Xidməti məlumat yayıb.

Bildirilib ki, iki dövlətin ekspert qruplarının işi davam edir.



## Füzuliyə növbəti köç - mənzillərin açarları təqdim edildi

**Aprelin 26-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən APA-ya verilən xəbərə görə, yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilib. Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.

Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bu mərhələdə Füzuli şəhərinə daha 39 ailə - 140 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 783 ailə, 2979 nəfərin daimi məskunlaşması təmin edilib.

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024

# Səfirimiz Tehrana qayıdacaqmı? - 15 aydır açıq qalan sual və ...

## Ceyhun Məmmədov: “Səfirliyin fəaliyyətinin bərpa edilməsi ilə bağlı ciddi müzakirə aparılır” Çingiz Qənizadə: “Yasin Hüseynzadənin ölüm cəzasının icra ediləcəyini düşünmürəm, çünki...”

**Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktından 15 ay ötür. Ötən il yanvarın 26-də baş verən və bir günahsız insanın - səfirlik əməkdaşının ölümü, iki nəfərin isə yaralanması ilə nəticələnən bu xain hücumun qonşu ölkələr arasında diplomatik əlaqələrdə yaratdığı böhran hələ də tam aradan qalxmayıb.**



Tehran rəsmiləri son vaxtlar bu yöndə ard-arda nikbin bəyanatlar versələr də, status-kvo hələ ki, dəyişməz qalır. Çünki rəsmi Bakının səfirin qayıdışı ilə bağlı prinsipial şərtləri dəyişməzdir - qatilin layiqli cəzaya çatdırılması və diplomatik nümayəndəliyimizin təhlükəsizliyinə etibarlı zəmanət verilməsi.

Birinci şərt qismən təmin edilib. Terrorçu Yasin Hüseynzadə haqda İran məhkəməsi edam cəzası çıxarıb. Lakin hökm hələ ki, yerinə yetirilməyib.

Bu arada məlumat yayılıb ki, səfirimizin qayıdışına kimi Təbrizdə Ermənistanın Baş konsulluğu açıla bilər. “Sputnik Armenia” xəbər verib ki, hökumətin aprelin 25-də keçirilən iclasında artıq xərclər smetası təsdiqlənib və yaxın vaxtlarda konsulluq açılacaq. Qərara əsasən, baş konsulun maaşı 2565 dollar və ya Tehrandakı səfirin maaşının təxminən 5/6 hissəsi qədər olacaq. Bəs Azərbaycan səfirliyi?

İranın Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani aprelin 15-də keçirdiyi brifinqdə deyib ki, Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin bərpası üçün hazırlıq işləri aparılır. Onun sözlərinə görə, Azərbaycanın Tehranda diplomatik fəaliyyətini bərpa etmək üçün ilk müsbət addımlar atılıb, xarici işlər nazirləri səviyyəsində danışıqlar aparılıb. O qeyd edib ki, bu yaxınlarda Azərbaycanın diplomatik nümayəndə heyəti hazırlıq işləri aparmaq üçün Tehrana səfər edib: “İran və Azərbaycan yekdil fikirdədirlər ki, siyasi əməkdaşlıq digər sahələrdə əməkdaşlıqla paralel inkişaf etməlidir”, - deyə XİN sözçüsü əlavə edib.

Onu da xatırladaq ki, İran İslam Respublikasının Azərbaycandakı səfiri Seyid Abbas Musəvinin diplomatik missiyası ötən il başa çatıb. “Səfirin missiyası ötən il yayın sonunda başa çatıb, lakin ondan tələb olunub ki, münasibətlər normallaşana qədər və Azərbaycan Respublikasının Tehrandakı səfirliyi fəaliyyətini bərpa edənədək öz fəaliyyətini davam etdirsin. Ona görə qeyd etmək lazımdır ki, cənab səfir Azərbaycan Respublikasının səfirliyinin fəaliyyəti bərpa olanadək öz fəaliyyətini davam etdirəcək", - məlumatda vurğulanıb.

Millət vəkili Ceyhun Məmmədov “Yeni Müsavat”a açıqlamasında bu gün Azərbaycan-İran münasibətlərində qismən normallaşma müşahidə edildiyini deyib. Millət vəkili prezident İlham Əliyevin də İranla münasibətlərin normallaşması üçün addım atdığına diqqət çəkib: “Düşünürəm ki, hazırkı mərhələdə münasibətlərimizin qorunmasına çalışmalıyıq. Eyni zamanda münasibətləri gərginləşdirə biləcək addımlardan mümkün qədər uzaq olmalıyıq. Bu gün səfirliyimizin fəaliyyətinin bərpa edilməsi ilə bağlı ciddi müzakirə aparılır. Azərbaycanın tələbləri aydındır. Səfirliyə hücum edən Yasin Hüseynzadə edam cəzasına məhkum edildi. Hesab edirəm ki, hökm yerinə yetiriləcək, dəyişdirilə bilməz. Azərbaycanın tələblərinin yerinə yetirilməsi mütləq şərtdir”.

İranın Təbriz şəhərində Ermənistan Baş konsulluğunun açılmasını şərh edən Ceyhun Məmmədov bildirib ki, İran bu kimi məsələlərdə Azərbaycanın mövqeyini nəzərə almalıdır: “Hesab edirik ki, İran həssaslıq nümayiş etdirəcək və Azərbaycanın mövqeyini nəzərə alacaq. O cümlədən səfirliyin yenidən açılması ilə münasibətlər yeni mərhələyə qədəm qoyacaq”.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə isə İranın səmimi ola biləcəyinə inanmır: “İran müəyyən təzyiqlər altında Yasin Hüseynzadəni ölüm cəzasına məhkum etdi. İranın Azərbaycana münasibətinin necə olduğunu hər kəs görür və bilir. Əvvəllər də dediyim kimi, beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək üçün, Vyana konvensiyasının tələblərini, diplomatik qaydaları pozan terrorçu Yasin Hüseynzadəyə ağır cəza verilməsi ehtimalı var idi. Onun şəxsiyyət vəsiqəsini, yaşayış yerini dəyişməklə İranın başqa bir ərazisində yaşamasını təmin edə bilərlər. Yasin Hüseynzadənin ölüm cəzasının icra ediləcəyini düşünmürəm. Xatırlatmaq yerinə düşər ki, hadisədən sonra Yasin Hüseynzadənin psixoloji vəziyyəti ilə əlaqədar ekspertiza təyin edildi, onu əlləri açıq formada dövlət kanallarının qarşısına çıxardılar. Bu, İranın Yasin Hüseynzadəyə olan münasibəti idi. Azərbaycan səfirliyinə terror hücumu Yasin Hüseynzadə səviyyəsində deyil, daha yüksək səviyyədə təşkil edilmişdi. Yayılan görüntülərdən aydın olmuşdu ki, İranın müvafiq hüquq-mühafizə orqanları və digərləri seyrçi mövqedə idilər. Terrorçunu zərərsizləşdirmək üçün heç bir cəhd göstərmədilər. Bu baxımdan hesab edirəm ki, Yasin Hüseynzadənin ölüm cəzasının icrası qeyri-mümkün görünür, amma yenə də bunu zaman göstərəcək”.

Xatırladaq ki, Yasin Hüseynzadə ilə mətbuatda bəzi məlumatlar yayılmışdı. O, İran vətəndaşıdır, meyvə-tərəvəz satışı ilə məşğul olub. İddiaya görə, Yasin Hüseynzadə “SEPAH”ın keçmiş zabiti olub. Mərəndin Yuxarı Yekan kəndində anadan olan 54 yaşlı Yasin Hüseynzadə İran-İraq müharibəsi zamanı “SEPAH” sıralarına qatılıb. O, qısa müddət ərzində müharibədə 31-ci Aşura diviziyasında da iştirak edib. Təbrizdə “SEPAH” qərargahında yük maşını sürücüsü işləyib və oradan təqaüdə yollanıb. 2006-cı illərdə Mərənddəki Yaldur məscidinə bağlı “Bəsic” qüvvələrinin komandanı olan Yasin Hüseynzadənin Təbrizdə “Bəsic” və “SEPAH” qüvvələri ilə birlikdə Bükan və Marağada baş verən antihökumət etirazlarının dağıdılmasında iştirak etdiyi barədə məlumatlar yayılmışdı.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**



## İrəvan Bakıdan sülh müqaviləsi ilə bağlı növbəti təklifləri alıb

**İrəvan Bakıdan sülh müqaviləsi ilə bağlı növbəti təklifləri alıb.**

APA xəbər verir ki, bunu Ermənistan XİN-in sözçüsü Ani Badalyan bildirib.

O qeyd edib ki, Ermənistan Azərbaycan tərəfdən sülh müqaviləsi layihəsi ilə bağlı 9-cu təklifləri alıb.




## Erməni deputat: Qazaxla sərhədin delimitasiyası texniki cəhətdən başa çatıb

**Ermənistan-Azərbaycan sərhədinin Tavuş vilayəti ilə Qazax rayonu ərazisindəki hissəsində delimitasiya prosesi texniki nöqteyi-nəzərdən başa çatıb.**

APA-nın xəbərinə görə, bunu Ermənistan Parlamentinin Müdafiə Komissiyasının sədri Armen Xaçatryan bildirib.

O bildirib ki, buradan keçən hissə Almatı Bəyannaməsinə əsasən sərhəd zolağı kimi təsdiqlənib.

Qeyd edək ki, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında 2024-cü il aprelin 25-dək 20 sərhəd dirəyi quraşdırılıb. İki dövlətin ekspert qruplarının işi davam edir.



## “Landmark” sahibinin ölkədən çıxışı yasaqlanıb

**“Landmark” Biznes Mərkəzinin qanuni təmsilçisi Eran Müdüroğlunun həyat yoldaşı Nərgiz Nəsrullayevanın Azərbaycandan getdiyi xəbərinin ardınca iş adamının ölkədən çıxışına “stop” qoyulması xəbəri var.**

Qaynarinfo xəbər verir ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi Eran Müdüroğlu barəsində məhkəməyə xüsusi icraat qaydasında müraciət edib.

İdarə məhkəmədən Eran Müdüroğlunun Azərbaycandan çıxışının məhdudlaşdırılması tələbi ilə çıxış edir. İş hazırda apellyasiya mərhələsindədir. Ziya Şirinov iş üzrə hakim təyin edilib. Eran Müdüroğlu kiprli iş adamı, mərhum Sami Efruz Müdüroğlunun övladıdır. Sami Efruz Müdüroğlu Bakıda fəaliyyət göstərən “Landmark” Biznes Mərkəzinin sahibi olub. O, hələ sağ ikən “Landmark”ın idarəçiliyini oğlu Erana vermişdi.

Eran Müdüroğlunun xanımı Nərgiz Nəsrullayeva isə 2001-2007-ci illərdə Hesablama Palatasının sədri olmuş Namiq Nəsrullayevin qızıdır. Nərgiz Nəsrullayeva bu yaxınlarda Azərbaycanı tərk edib. Mediada gedən məlumatlarda onun ölkəni tərk etməsi Müdüroğlu ailəsinin Bakıdakı biznesinin vəziyyəti ilə izah edilir. Bəzi iddialara görə, Müdüroğlu ailəsinin biznesi çöküş dövrünü yaşayır. Onların külli miqdarda vergi borcunun yarandığı iddia edilir. Nərgiz Nəsrullayeva ölkədən getməsinin səbəbləri barədə danışmaq istəməyib.

O, Azərbaycandan gedənə qədər Dövlət Neft Fondunda çalışıb.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

# Avroparlamentin bitməyən qərəzi - anti-Azərbaycan sənədinə Bakıdan reaksiyalar

**Azər Badamov:** “Avropa Parlamenti nə qədər qışqırsa da, Avropa İttifaqının enerji təhlükəsizliyi Azərbaycandan asılıdır”

**Tural Abbaslı:** “Türkiyə-Azərbaycan birliyini, mövqeyini zəiflətmək və regionda möhkəmlənmək üçün atılan addımlardır”



**Aprelin 25-də Avropa Parlamenti Azərbaycan əleyhinə daha bir qətnamə qəbul edib. Qurum ölkədə vətəndaş cəmiyyətinə qarşı guya repressiya aparılması iddiaları əsasında Azərbaycan hakimiyyətini qınayan sənədi 474 “lehinə”, 4 “əleyhinə” və 51 “bitərəf” səslə qəbul edib.**

Ermənipərəstliyi çoxdan şübhə doğurmayan və bu yay səlahiyyətləri bitəcək Avrodeputatlar Azərbaycan hakimiyyətini 2023-cü ilin dekabrında həbs edilmiş İlhamiz Quliyevi, Avropa İttifaqı və digər ölkələrin vətəndaşları da daxil olmaqla, bütün digər “siyasi məhbusları” dərhal və qeyd-şərtsiz azad etməyə çağırıblar.

“Onlar hakimiyyəti siyasətçi, iqtisadçı və müxalifətçi xadim Qubad İbadoğlunun üzərindən bütün ittihamları götürməyə, səfər qadağasını ləğv etməyə, həmçinin aprelin 22-də ev dustaqlığına buraxıldıqdan sonra ona sərbəst tibbi yardım göstərməyə çağırırlar”, - məlumatda deyilir.

“Azərbaycanda insan hüquqlarının pozulmasının davam etməsi COP 29-u qəbul edən ölkə ilə bir araya sığmır”, - qətnamədə iddia olunur.

Avropa Parlamentinin deputatları həmçinin Avropa Komissiyasını “energetika sahəsində Azərbaycanla strateji tərəfdaşlığın dayandırılması” məsələsinə baxmağa çağırıblar. Onlar israr edirlər ki, tərəfdaşlıq haqqında istənilən gələcək saziş “bütün siyasi məhbusların azad edilməsi və ölkədə insan hüquqları ilə bağlı vəziyyətin yaxşılaşdırılması ilə əlaqələndirilsin”.

Bundan əlavə, qurum “insan hüquqlarını ciddi şəkildə pozan azərbaycanlı məmurlara qarşı Avropa İttifaqının sanksiyalarının tətbiq edilməsi” barədə çağırışlarını təkrarlayırlar.

Artıq Milli Məclis qətnaməyə sərt etirazını bildirib.

Qeyd etmək yerinə düşər ki, yaxın günlərdə ABŞ Dövlət Departamenti də 2023-cü il üzrə insan haqlarına dair hesabatını açıqlayıb. Hesabatın Azərbaycana aid hissəsində yenə qərəzli, düzgün olmayan mövqe əks olunub.

Milli Məclisin deputatı Azər Badamov mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, Avropa Parlamentinin Azərbaycanda vətəndaş cəmiyyəti və insan hüquqları məsələsinə dair obyektivlikdən uzaq qətnamə qəbul etməsi ölkəmizə qarşı qərəzin növbəti nümayişidir: “Avropa Parlamentinin Azərbaycana qarşı qətnamələrin qəbulunun əsasında Azərbaycanofob, türkfob və islamofob siyasət dayanır. Avropa parlamentariləri üçün insan haqları, demokratiya və digər hüquqlar maraqlı deyil. Onlar bu hüquqları sadəcə Azərbaycana və digər müsəlman ölkələrinə təzyiq vasitəsi kimi istifadə edirlər. Əgər insan haqları və demokratiya, vətəndaş cəmiyyətinin hüquqları ilə bağlı Avropa Parlamenti mövqe sərgiləsəydi, onlar bunu Fransada müsəlman uşaqların məktəblərə buraxılmaması, açıq aksiya keçirənlərə qarşı şiddətin işlədilməsi və insanları həbslərə məruz saxlamaları ilə bağlı səslərini çıxardardılar. Yaxud da Ermənistanda jurnalistlərin, müxalifətçilərin həbs olunmasına görə də reaksiya verərdilər. Onlar üçün bu gün Azərbaycan maraqlıdır. Çünki bir neçə aydan sonra Avropa Parlamenti seçkilərə gedəcək. Parlamentarilər erməni diasporunun sifarişlərini icra etməklə qarşıdan gələn seçkilərdə yenidən mandat qazanmaq istəyirlər. Ona görə də Azərbaycana təzyiq göstərilməsi üçün siyasi məhbus, vətəndaş cəmiyyətinin hüquqları məsələsini ortaya atıb Avropa İttifaqından ölkəmizə qarşı sanksiyaların tətbiq olunmasını tələb edirlər. Azərbaycanda törətdikləri cinayətlərinə görə həbs olunanlara siyasi məhbus donunun geyindirməsi və ondan ölkəmizə təzyiq kimi istifadə olunması riyakarlıq və düşmənçilkdir. Təbii ki, qəbul olunmuş bu qətnamə də ondan əvvəl qəbul olunmuş qətnamələr kimi bizim üçün dəyərsiz bir kağız parçasından başqa bir şey deyil”.

Deputat Avropa Parlamentinin bu hərəkətlərini sadəcə ölkəmizin daxili işlərinə qarışmasına cəhd kimi qiymətləndirdiyini deyib: “Hamı bilir ki, Avropa Parlamentinin qəbul etdiyi qətnamə yalan üzərində qurulmuş ağlaşmadır. Avropa İttifaqının rəhbərliyi də bu məsələləri lap yaxşı bilir. Həm də Avropa Parlamenti nə qədər qışqırsa da, Avropa İttifaqının enerji təhlükəsizliyi Azərbaycandan asılıdır. Bu gün Azərbaycan həm də Orta dəhliz layihəsinin əsas həlqəsidir. Bu baxımdan Azərbaycan bu gün Avroasiyada iqtisadi əlaqələrin qurulmasının lokomotividir. Ona görə də Avropa İttifaqı Avropa Parlamentinin qətnaməsini ciddiyə almır. Həm də bir neçə aydan sonra Avropa Parlamenti və Avropa İttifaqının rəhbərliyinin tərkibləri yenidən formalaşacaq. Fikrimcə, yenidən formalaşacaq tərkiblər isə Azərbaycana qarşı münasibətlərini dəyişərək ədalətli mövqedən çıxış edəcəklər. Çünki Avropa Parlamentinin Azərbaycana qarşı qərəz nümayiş etdirməsi Avropa İttifaqı üçün xeyir gətirmir”.

“Ağ Partiya” başqanı Tural Abbaslı da mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini açıqladı. O dedi ki, qətnamə ilə bağlı məsələyə həssas yanaşılmalıdır: “Qərb, ABŞ Azərbaycanı Qarabağ qələbəsindən sonra xüsusi basqı altına alıblar. Bu açıq müşahidə olunan bir faktdır. Bir çox hallarda burada məqsəd demokratiya, insan azadlıqları, ədalətli, şəffaf seçki tələbi deyil. Bu sırf Ermənistan-Azərbaycan qarşıdurmasında Ermənistanın mövqelərinin möhkəmləndirilməsi üçün və regionda vəziyyətin Ermənistana dəstək olan qüvvələrin xeyrinə dəyişməsi üçün Azərbaycana edilən növbəti basqılardan biridir. İndi sual oluna bilər ki, Azərbaycanda siyasi məhbus varmı, var. Yaxud Azərbaycanda vətəndaş cəmiyyəti qənaətbəxşdirmi, xeyr. Azərbaycanda demokratiya ilə bağlı problemlər varmı, əlbəttə, problemlər var. Partiya olaraq biz bu problemlərin aradan qaldırılması uğrunda illərdir mübarizə aparırıq. Ancaq bu qətnamənin qərəzli olduğunu bir sıra məqamlarla da göstərmək olar. Bu günə qədər Ayaz Mütəllibovdan sonra prezidentlər arasında siyasi məhbus da olub, vətəndaş cəmiyyətinin nümayəndələri də sıxışdırılıb, mediaya da basqılar olub. Amma nədənsə Avropa, Amerika Qarabağ müharibəsindəki qələbəmizdən sonra radikallaşıb. Burada konkret sanksiyalardan söhbət gedir. Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin sənədləri təsdiq olunmur. Ard-arda həmin ölkələrin senatları Azərbaycan əleyhinə qətnamələr qəbul edib. Mənim də iki müavinim siyasi məhbus olub. Niyə həmin ərəfədə Azərbaycana qarşı hansısa sanksiya tətbiq olunmadı. Yaxud AŞPA-da nümayəndə heyətinin səlahiyyəti dondurulmadı. Niyə Azərbaycanda ”Avroviziya” keçirildi, bütün Avropa Bakıya gəldi, niyə boykot etmədilər. Amma indi Azərbaycan öz torpaqlarını azad edəndən sonra COP 29 Azərbaycanda keçirilməsin deyirlər. Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsini istəyirlər. Azərbaycandan neft-qaz almayaq deyirlər. 30 ildə Azərbaycanda demokratiya problemi oldu, biz bunun uğrunda mübarizə apardıq. Amma 30 ildə də Qərb daim Azərbaycandan neft də alıb, qaz da alıb. ABŞ özünün İraqa, Əfqanıstana olan müdaxiləsi zamanı Azərbaycanla əməkdaşlıq da edib. Nə oldu, birdən-birə vəziyyət dəyişdimi? Əksinə, indi vəziyyət əvvəlkindən daha yaxşıdır, azadlıq baxımından da müsbət məqamlar var. Bu sırf Qarabağ ətrafında gedən siyasi savaşa görə Azərbaycana qarşı olan qərəzli mövqedir. Azərbaycanın daxili demokratik problemlərindən istifadə edib üzərimizə gələrək Türkiyə-Azərbaycan birliyini, mövqeyini zəiflətmək, regionda möhkəmlənmək üçün atılan addımlardır”.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 72 (8445) 27 aprel 2024



# Prezident Almaniyada mühüm mesajlar verdi - sülh gündəliyi...

## Dövlət başçısı "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində vacib bəyanatlar səsləndirdi, kansler Şoltsla görüşdü; analitiklər Fransanın itirdiyi şansları Almaniyanın qazandığı qənaətindədirlər

**Aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyev Almaniyaya səfər edib. Dövlət başçısı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib. "Yeni Müsavat" xəbər verir ki, ölkə başçısı tədbirdə COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycanın fəal hazırlıq prosesində olduğunu açıqlayıb. Bu qlobal tədbir üçün Azərbaycanın bir ildən az vaxtı olduğunu vurğulayan dövlət başçısı bildirib: "Biz də əlimizdən gələni edirik ki, yaxşı nəticələr əlimizdə olsun. Ümidvaram, bu beynəlxalq platforma (COP29 - red.) bizə imkan verəcək ki, Qlobal Cənub ölkələri ilə təmasları gücləndirək, eyni zamanda, Avropa ölkələri ilə də əlaqələri uğurla inkişaf etdirək". Avropa İttifaqının doqquz üzvü ilə Azərbaycanın strateji tərəfdaşlıqla bağlı bəyannamələr imzaladığını xatırladan dövlət başçısı diqqətə çatdırıb: "Ümid edirəm, bu beynəlxalq əlaqələrimiz imkan verəcək ki, həmrəyliyi gücləndirək. Buna böyük ehtiyac var. Bizdən maliyyə, həmrəylik və birgə məsuliyyət tələb olunur".**

Prezidentin sözlərinə görə, biz təkcə COP29-u yaxşı təşkil etməli deyilik, eyni zamanda, yaxşı nəticələr əldə etməliyik: "Hesab edirəm, Azərbaycanın beynəlxalq təmasları, əlaqələri, beynəlxalq təşkilatlardakı fəaliyyəti bizə imkan verəcək ki, körpüləri quraq, gücləndirək, müxtəlif qitələrdən olan ölkələr arasında həmrəyliyi də gücləndirək". "Bizim neft-qaz sahəsində uzun illər ərzində xüsusilə də Avropa bazarlarına nəql ediləcək resurslarımız var". 2022-ci ildə enerji sahəsində Avropa İttifaqı ilə tərəfdaşlıq sazişinin imzalandığını xatırladan dövlət başçısı bildirib ki, bu gün bizim Avropa İttifaqına, Avropa qitəsinə qaz təchizatımız artır: "Faydalı qazıntı ilə zəngin ölkə olaraq Azərbaycan OPEC+ platformasının üzvüdür və bu da əlavə üstünlük verir. Çünki enerji, qaz və neftlə zəngin olan ölkələr bu işdə - iqlim dəyişikliyi ilə mübarizə sahəsində öndə getməlidirlər. Beləliklə, bu müxtəlif platformalar bizdə yaxşı həmrəylik ruhu yaradacaq və bizə imkan verəcək ki, hədəflərimizə nail olaq. Bizim ölkə COP-a ev sahibi seçilən kimi bir sıra media qurumları bizim enerji portfelimizi təhlil etməyə başladılar", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

İ.Əliyev bəyan edib ki, enerji təhlükəsizliyi məsələsi əhəmiyyətinə görə milli təhlükəsizliyə bərabər olmalıdır: "Burada hər hansı ayrı-seçkiliyə yol verilməməlidir. Zəngin enerji resurslarına malik olmağımıza baxmayaraq, biz bu məsələni müdafiə edəcəyik", - deyən dövlət başçısı vurğulayıb ki, ənənəvi enerjiyə sahib olan ölkələr xüsusilə də iqlim dəyişikliyi məsələsində həmrəylik nümayiş etdirməlidirlər. Bizim yaşıl enerji layihələrimiz xarici investorlar tərəfindən maliyyələşdirilir. Biz, sadəcə, bu sərmayələr üçün müvafiq münbit iqlim yaradırıq". Ölkəmizin dənizdə təsdiq edilmiş külək enerjisi potensialının 157 qiqavat həcmində olduğunu söyləyən dövlət başçısı bildirib ki, bu, bizim potensialımızın göstəricisidir. Daha sonra Prezident İlham Əliyevin Almaniyanın Federal Kansleri Olaf Şoltsla təkbətək görüşü olub. Sonra liderlərin geniştərkibli görüşü keçirilib.





Səfər zamanı ikitərəfli əlaqələrin mövcud durumu və gələcək perspektivi ilə yanaşı, regional sülh və əməkdaşlığa rəsmi Berlinin verə biləcəyi dəstək məsələsi də diqqət mərkəzində olub.

"Biz istənilən ölkə kimi öz media məkanımızı xarici neqativ təsirdən qorumalıyıq və hər kəs qanunlara əməl etməlidir".

APA xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Berlində Almaniyanın Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında deyib.

"Azərbaycanda azad cəmiyyət var, insanlar, o cümlədən media nümayəndələri tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar", - deyə dövlət başçısı bildirib.

"Avropada təbii qaza - yeni mənbələrdən olan qaza tələb artır. Əgər 2021-ci ildə biz Avropa İttifaqı ölkələrinə 8 milyard kubmetr qaz təchiz etmişdiksə, bu il bu rəqəm 12 milyarda çatıb. Biz əlavə sərmayə qoyuruq, əlavə vəsait ayırırıq ki, Avropa ölkələrini bu məsələdə dəstəkləyək. Beləliklə, həm ənənəvi enerji növləri, eyni zamanda, bərpaolunan enerji növləri ilə zəngin olan Azərbaycan Avropa üçün uzun illər bundan sonra əhəmiyyətli tərəfdaş kimi olacaqdır", - deyə Prezident qeyd edib: "Neft və qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalıdır. Bu ölkələr iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərmişdir. Bu gün BƏƏ, Azərbaycan və Braziliya üçlük şəklində fəaliyyət göstərir".

Bu ölkələrin əldə olunmuş gəlirlərin yaşıl enerjiyə sərf edilməsi istiqamətində addımlar atdıqlarını vurğulayan dövlət başçısı deyib: "COP29 qarşıdurma arenası olmayacaq. Azərbaycan ev sahibi kimi körpülər yaradacaq. Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən yaşıl enerjiyə keçid və iqlim dəyişikliyi ilə bağlı".

"Biz Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndiririk" deyən İlham Əliyev Kansler Olaf Şoltsun dəvəti ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin bu yaxınlarda Almaniyada görüşdüklərini xatırladıb: "Növbəti görüş Qazaxıstanda planlaşdırılacaq və beləliklə, sülh sazişinin imzalanmasına doğru biz əlavə addımlar atırıq".

Aprelin 26-da Prezident İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə də görüşü olub.

Prezidentin Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə də görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerlə də təkbətək görüşü keçirilib.

Ştaynmayer Azərbaycan Prezidentini Bellevue sarayında qarşılayıb.

Prezident İlham Əliyev xatirə kitabına qol çəkib.

****

Hazırda Qərb dövlətləri arasında məhz Almaniya sülh gündəliyinə münasibətdə özünü daha səmimi və praqmatik aparır. Almaniya kansleri fevralda Münhen Təhlükəsizlik Konfransı çərçivəsində İlham Əliyevlə Nikol Paşinyan arasında görüş təşkil etmişdi. Azərbaycan və Ermənistan XİN rəhbərləri axırıncı dəfə yenə məhz Berlində, bu ilin fevralında Almaniyada XİN-in vasitəçiliyi ilə bir araya gələrək, iki gün ərzində sülh müqaviləsi ətrafında danışıqlar aparmışdılar. Bu danışıqların davamı gələcəkmi?

Politoloq Elxan Şahinoğluya görə, Fransanın anti-Azərbaycan siyasəti bu ölkəni Avropanın digər iddialı ölkəsi olan Almaniyanın gerisinə sürükləyib. Analitik hesab edir ki, Berlin fürsətdən məharətlə istifadə edib. E.Şahinoğlu düşünür ki, Fransa prezidenti Emmanuel Makron qatı ermənipərəst və anti-Azərbaycan siyasəti ilə Bakı ilə İrəvan arasında vasitəçilik imkanlarını itirib.: "Almaniyanın kansleri Olaf Şolts yaranan bu vəziyyəti doğru qiymətləndirərək Bakı ilə İrəvan arasında vasitəçilik təşəbbüslərini gücləndirib". Ekspert xatırladır ki, Almaniya kansleri fevral ayında Münhendə Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçlü görüş təşkil etdi, bundan bir müddət sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri Berlində müzakirələri davam etdirdilər: "Azərbaycanla Ermənistan arasındakı son razılaşmalar vasitəçi olmadan əldə edilib. Buna baxmayaraq, İrəvan və Bakı Berlinin vasitəçiliyindən imtina etmirlər. Bu baxımdan Azərbaycan prezidentinin aprelin 26-da Almaniyaya səfəri bu siyasətin tərkib hissəsidir. İlham Əliyev səfər öncəsi Almaniyanın siyasəti barədə müsbət fikirlər söyləyib. İlham Əliyev vurğulayıb ki, Azərbaycanın Almaniya ilə sərmayə qoyuluşu və dövlət strukturları ilə müqavilələrin bağlanılmasına dair planları var. Vaxt var idi, bu kimi müzakirələr Fransanın rəhbərliyi və işgüzar dairələri ilə aparılırdı". Politoloqun fikrincə, Makron yaxın keçmişdəki əlaqələrin üstündən xətt çəkdi, itirən Fransa oldu: "Almaniya ilə Fransanın Azərbaycan üçün daha bir fərqi özünü onda göstərdi ki, Berlin Azərbaycanla Ermənistan arasındakı sərhəd razılaşmasını təqdir etdi, Parisdən isə səs çıxmadı".

Təhlilçi Asif Nərimanlı isə belə qiymətləndirir ki, Əliyevin Almaniyaya səfərinin Füzuli-Berlin marşrutu üzrə başlanması - azad olunmuş ərazilərdən qlobal siyasətə ilk çıxış təkcə bu unudulmaz anı tarix səhifəsinə yazmaq məqsədi daşımır, həm də siyasi hesablamanın tərkib hissəsidir: "Və istisna deyil ki, məsələ heç də Əliyevin Japarovla birlikdə Qarabağda olduğu üçün zaman trafikindən qaynaqlanmayıb. Füzulidən Berlinə uçan Prezidentin portfelində Azərbaycana dividendlər gətirəcək məsələlər var. Əliyev Berlinə azad olunmuş ərazilərdən gedərək, buranın artıq "təhlükəsiz bölgə" olduğunu nümayiş etdirdi. Bu, investorlar üçün vacib amildir. Bakının hədəfi azad olunmuş əraziləri "yaşıl enerji zonasına" çevirməkdir və Əliyevin portfelində də məhz investorları bu bölgəyə cəlb etmək var". Siyasi şərhçinin sözlərinə görə, ən mühüm amillərdən biri - Azərbaycanın torpaqlarını azad etdiyinin, suverenliyinin bərpa olunduğunun mesajı praktiki olaraq Avropaya çatdırıldı: "Bu, xüsusilə Fransa başda olmaqla suverenliyimizin bərpasını qəbul etməyən, hələ də regiondakı reallığı dəyişdirə biləcəklərinə ümid edən qüvvələrə ünvanlanıb".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

**“Azərbaycan və Ermənistanın hərbi büdcələrinin nisbətinə baxsanız, ciddi disbalansın olduğunu görərsiniz. Bu balanssızlıq şəraitində belə, bizim silahlı qüvvələrdəki islahatlara, silah və texnikanın alınmasına Bakı çox aqressiv reaksiya verir - baxmayaraq ki, aldığımız silahlar sırf müdafiə xarakteri daşıyır. Döyüşə hazır ordunun olması sülh üçün, qüvvələr balansının düzgün formalaşması üçün vacibdir”.**

# İrəvanın sülhə qarşı “hərbi balans” bəhanəsi - Bakıdan reaksiya

## Əliyevdən xəbərdarlıq: “Bir güllə atılan kimi...”



Bunu Ermənistan baş naziri Nikol Paşinyan deyib.

Göründüyü kimi, Azərbaycanla sülh anlaşmasından yayınmaq üçün erməni tərəfi faktiki “hərbi balans” bəhanəsi gətirir. “Qüvvələr balansının düzgün formalaşması” zəruriliyi altında da elə bu niyyət ört-basdır edilir, yəni klassik erməni bicliyi.

Halbuki, Azərbaycan əhalisinə və ərazisinə görə Ermənistandan dəfələrlə böyükdür. Müvafiq surətdə beynəlxalq normalara əsasən hərbi kvotalar da fərqli olmalıdır və fərqlidir. O zaman Ermənistanın hərbi xərcləri ilə bizim hərbi xərclər, iki ordudakı hərbçi sayı necə eyni ola bilər? Azərbaycanla Ermənistan arasında hərbi balans necə mümkün ola bilər? Kiçik xalqların və ya ölkələrin böyük ordusu mümkünmü?

Demək, Paşinyanın hədəfi müdafiə ordusu deyil, gələcəkdə “Qarabağ uğrunda döyüşə” biləcək hücum ordusu qurmaqdır. Söz düşmüşkən, bu arada məlum olub ki, həm Fransa, həm də digər ölkələrdən Ermənistana silah-sursat daşınması fasiləsiz davam edir və özü də Gürcüstan üzərindən həyata keçirilir.

“Bizim Ermənistana qarşı yenə də pis niyyətimiz yoxdur. Bizim onların ərazisinə heç bir iddiamız yoxdur, amma onlar başa düşməlidirlər ki, birincisi, bu silahlar onlara kömək etməyəcək. İkincisi, bu, təhlükəlidir və mənim vəzifəm onlara, həmçinin onların arxasında duran və onları manipulyasiya edənlərə xəbərdarlıq etməkdir ki, bu, həqiqətən təhlükəlidir və onlar mənim dediklərimə qulaq asmalıdırlar. Çünki bilirlər ki, sözlərimə qulaq asmalıdırlar. Mənim tövsiyəm budur”.

Bu xəbərdarlığı İrəvana Prezident İlham Əliyev aprelin 24-də “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxışı zamanı edib.

“Bu gün onlara hərtərəfli və davamlı dəstək vəd edənlər, əgər ilk güllə sərhəddə atılsa qaçacaqlar. Mən tam əminəm. Avropalı sülh müşahidəçiləri adlanan, bizə qarşı binokl diplomatiyasından istifadə edib nə isə nümayiş etdirməyə çalışan, - bilmirəm nə nümayiş etdirmək istəyirlər, - ehtiyatda olan hərbçilər və polislər bizim cavab vermədiyimizə görə bizə minnətdar olmalıdırlar. Əminəm ki, ciddi bir şey olsa, onlar qaçacaqlar. Biz vəziyyəti belə görürük və yenə də regionda təhlükəsizliyə, sabitliyə gedən yol Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından keçir”, - Prezident vurğulayıb.

Bəs altdan-altdan hücum ordusu qurmağa çalışan Ermənistanla sülh mümkünmü? Paşinyan hərbi balans deyərkən nəyi nəzərdə tutur?

Deputat Bəhruz Məhərrəmov “Yeni Müsavat”a bildirdi ki, regionda Bakı və İrəvan arasında unikal sülh imkanlarının yarandığı bir zamanda Nikol Paşinyanın hərbi balans barədə bəyanatları yersiz və təhlükəli ritorikadır və məhz Ermənistanın özünün mövcudiyyəti üçün təhdiddir: “Qalib tərəf olan Azərbaycanın sülh ritorikası qarşılığında Ermənistanın silahlanmasına, daha dəqiq desək, sürətlə silahlandırılmasına haqq qazandırmağa çalışması və Paşinyanın bu mövqeyini Azərbaycanla hərbi imkanlarını bərabərləşdirmək cəhdi ilə izah etməsi, eyni zamanda ironiya doğurur. 30 illik hərbi potensialının 80 faizi məhv edilmiş, əhalisinin isə döyüş ruhu tam qırılmış, döyüş qabiliyyətli vətəndaşlarının mütləq əksəriyyəti fərari olan Ermənistanın hərbi-siyasi imkanları hər ötən gün artan Azərbaycanla hərbi bərabərsizliyə nail ola biləcəyinə inanması, yaxud inandırılması göstərir ki, İrəvan hələ də ayılmayıb. Bu, həqiqətən Ermənistan adına təhlükəli situasiyadır və hətta Azərbaycan özü Ermənistana belə bir ssenari arzulamır. Cənab İlham Əliyev aprelin 23-də ADA Universitetində ”COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda cəmi 4 il əvvələ qədər Bakı və İrəvanın heç baza prinsipləri üzərində belə razılığa gələ bilmədiyi halda, bu gün sülh sazişinin imzalanmasına heç vaxt olmadığı qədər yaxın olduğumuzu, təfərrüatları işləmək üçün hər iki tərəfə vaxt lazım olduğunu bildirmişdi. Lakin görünən odur ki, Ermənistan həmin vaxtı yenə təcavüzkar məqsədlər naminə dəyərləndirmək istəyir. Baxmayaraq ki, biz artıq tərəfləri real sülhə aparan ciddi addımlara şahidlik etmişik. İstər 7 dekabr bəyanatı, istər Azərbaycan liderinin yaratdığı hərbi-siyasi reallıqla “Dağlıq Qarabağ” amilinin gündəlikdən birdəfəlik çıxarılması və bu saxta məfhumun sülh sazişində olmaması, istərsə də aprelin 19-da sərhədlərin delimitasiyası və sərhəd təhlükəsizliyi komissiyalarının iclasında 4 kəndin qaytarılmasında ehtiva olunan ilkin razılıq və artıq qısa müddətə 20-dən artıq sərhəd dirəyinin razılaşdırılmış qaydada qoyulması mühüm tarixi gedişat və regionda təhlükəsizlik üçün ciddi şansdır. İndi Ermənistan mümkünsüz bir məqsəd naminə bu şansı qurban verərsə, bu, hayların tarixi və bağışlanılmaz səhvi olar.

Bəli, Bakı, xüsusən 19 aprel görüşündən sonra hadisələrin müsbət məcrada getməsindən məmnundur. Lakin burada da təəssüf və hiddət doğuran məqamlar meydana çıxır ki, kollektiv Qərb Cənubi Qafqazda sülh və dayanıqlı sabitlik qarşısında ciddi əngəl kimi çıxış edir. Məsələn, ərazi bütövlüyü tezisində Ukrayna, Gürcüstan və Moldovaya tam fərqli prizmadan yanaşıldığı halda Avropa Komissiyasının sədri, ABŞ-nin Dövlət katibi və Ermənistanın Baş nazirinin Brüssel sövdələşməsi göstərir ki, kollektiv Qərb Cənubi Qafqazda ayırıcı xətləri çəkməkdə israrlıdır. Digər tərəfdən Fransa, Hindistan və Yunanıstan Ermənistanı açıq formada Azərbaycana qarşı silahlandırır ki, bu da tərəfimizdən sükutla qarşılana bilməz. Xüsusən də indi Paşinyanın balansdan dəm vurması şəraitində.

Bildiyiniz kimi, ADA-da təşkil olunmuş beynəlxalq forumda cənab İlham Əliyev həm “Ermənistanın qayğısına qalan” həmin güclərə, həm də Ermənistanın özünə xəbərdarlıq etdi ki, “Əgər özümüzə ciddi təhdid görsək, biz ciddi tədbirlər görməli olacağıq”.

Ötən dövrün təcrübəsi göstərir ki, kənar müdaxilələr əksər hallarda Ermənistanda, xüsusən revanşist kəsimlərdə yanlış eyforiyalara və təhlükəli gözləntilərə səbəb olur ki, bunun da acısını elə haylar özü çəkir. Möhtərəm Prezidentin bu proseslə də bağlı mövqeyi aydındır ki, “əgər onlar o qədər də vacib olmayan bəzi terminlərdən yapışsalar, onda biz aydın şəkildə görəcəyik ki, bu vaxtdan istifadə edərək daha çox silahlanmaq və bizə yenidən hücum etmək istəyirlər. Lakin biz onlara belə bir şansı verməyəcəyik”.

Düzdür, biz indiki məqamda arzuolunmaz notlara köklənmək niyyətində deyilik. Xüsusən nikbinlik üçün ciddi əsasların olduğu situasiyada. Lakin eyni zamanda proseslərin istənilən məcrada inkişafına və istənilən ssenariyə də hazırıq və Ermənistan bunu nə qədər tez başa düşərək balans yaratmaq, yaxud oxşar digər gülünc niyyətlərindən əl çəkərək sülhə fokuslansa, daha faydalı olar".

Hərbi ekspert Rövşən Məhərrəmov sülh müqaviləsinin əldə edilməsini indiki mərhələdə həm də çətin görür: “Ermənistanı xüsusilə Fransa, Hindistan və Yunanıstan silahlandırır. Hindistan Azərbaycanla Pakistan arasındakı münasibətlərə görə erməni tərəfinə dəstək çıxır, Yunanıstan üçün Türkiyə faktoru əsasdır, Fransanın isə təbii ki, öz maraqları var. Azərbaycanla Ermənistan arasında hərbi baxımdan balansın yaradılması üçün ABŞ, Avropa İttifaqı addımlar atır. Onlar çalışırlar ki, ən az Ermənistan 44 günlük müharibədən əvvəlki səviyyəyə gəlib çatsın. Beləcə Ermənistanın həm müdafiə qabiliyyəti artmış olacaq, həm də ehtimal olunan bir müharibədə Ermənistan tərəfi ən azı özünü bir müddət qoruya biləcək. Düzdür, Qərb sözdə Azərbaycana görə bu balansı istəyir, ancaq reallıqda Rusiya faktorunu düşünür. Dəfələrlə bildirilib ki, əgər Rusiya Ermənistanda siyasi baxımdan istəyinə nail ola bilməsə, hərbi müdaxilə də edə bilər.

Qazaxın 4 kəndinin qaytarılması sülh müqaviləsini yenidən gündəmə gətirib. Düşünürəm ki, sülh müqaviləsi Qazaxın 4 kəndinin veriləcəyi qədər asan olmayacaq. Çünki bu müqavilənin imzalanması regiona sabitlik gətirəcək, kommunikasiyalar açılacaq. Bunu isə istəməyən ölkələr daha çoxdur. Qərb Rusiyaya qarşı daha çox Gürcüstan və Ermənistan üzərindən oyunlarını qurub. Adıçəkilən ölkələr əgər davranışlarında dəyişiklik etməsələr, Rusiya-Ukrayna müharibəsi bitər-bitməz Cənubi Qafqazda gərginlik artacaq, hətta siyasi gərginliyi hərbi gərginlik də əvəz edə bilər".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

## Fərid Şəfiyev: “Türk dövlətlərinin Qarabağın bərpasında iştirakı çox önəmli xarakter daşıyır”



**“Qardaş Türk dövlətlərinin işğaldan azad olunmuş Qarabağın bərpasında iştirakı çox önəmli xarakter daşıyır”. APA-nın xəbərinə görə, bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Bakıda keçirilən “Qırğızıstan-Azərbaycan İkitərəfli Münasibətləri müasir mərhələdə: Strateji Tərəfdaşlığın Genişləndirilməsi” mövzusunda dəyirmi masada bildirib.**

O, Qırğızıstanın işğaldan azad olunmuş ərazilərdə məktəb binası tikəcəyini xatırladıb: “Bu, bir tərəfdən ərazilərin bərpasına töhfədir. Digər tərəfdən isə Azərbaycana belə bir hədiyyənin məhz qardaş Türk xalqı tərəfindən edilməsi mühüm əhəmiyyət daşıyır. Azərbaycan Qırğızıstanda önəmli investisiya layihələri həyata keçirir. İkitərəfli platformadan başqa, Türk Dövlətləri Təşkilatı çərçivəsində də əməkdaşlıq çox önəmlidir. Digər vacib tərəfdaşlıq platformaları çərçivəsində də münasibətlərimiz davam edir. Qeyd etmək istəyirəm ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıqdan savayı, başqa platformalar da var”.

Qırğızıstanın Azərbaycandakı səfiri Kayrat Osmanaliyev isə Prezident Sadır Japarovun Azərbaycana səfərini münasibətlərdə yeni mərhələyə keçidin başlanğıcı adlandırıb:

“Biz hesab edirik ki, hər iki ölkə arasında əməkdaşlıq üçün olduqca geniş imkanlar var və bu imkanlardan istifadə etməklə, münasibətlərimizi yeni mərhələyə yüksəltmək üçün əlimizdən gələni əsirgəməyəcəyik”.

O da qeyd edilib ki, qlobal məcradakı hadisələr fonunda Türk dünyası ölkələrinin bir-biri ilə daha sıx əməkdaşlıq etməsi olduqca önəmlidir.

Səfir diqqətə çatdırıb ki, Qırğızıstan Füzulidə xatirə kompleksinin inşasında da iştirak edəcək.

Azərbaycanın Polşadakı keçmiş səfiri, sabiq xarici işlər naziri Həsən Həsənov isə tarixə ekskurs edib.

O bildirib ki, torpaqlarının işğaldan azad olunmasına qədər Azərbaycan digər ölkələrlə münasibətləri onların işğal faktoruna yanaşması əsasında tənzimləyirdi:

“İndi isə münasibətlərdə yeni mərhələ başlayır. Mən hesab edirəm ki, hazırda Türk dövlətləri arasındakı əlaqələrə yeni və daha geniş nöqteyi-nəzərdən yanaşılmalıdır”.

Tədbirdə ikitərəfli münasibətlərdə indiyədək əldə olunan nəticələr və perspektiv planlar barədə geniş məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.





# Ağdamdakı Birgə Monitorinq Mərkəzi də tarixə qovuşdu

## Mərkəzin fəaliyyəti rəsmən dayandırıldı; ölkəmizin ərazisində bütün nəzarəti dövlətimiz tamamilə özü həyata keçirir

**Ağdam rayonu ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətini dayandırıb. Bir neçə gün öncədən məlumat verilmişdi ki, mərkəz qapadılacaq.**

Birgə Monitorinq Mərkəzinin fəaliyyətinə artıq heç bir ehtiyac qalmamışdı.

Mərkəzin məqsədi sülhməramlılar yerləşdirilən ərazidə mövcud olmuş separatçı rejimin təxribatlarının qarşısını almaq, bölgədə konfliktlər baş verməməsi üçün nəzarət həyata keçirmək idi. Bəlli olduğu kimi, 2023-cü ilin sentyabrında Azərbaycan separatçı rejimin dayanmayan təxribatlarına cavab olaraq bölgədə lokal antiterror əməliyyatları həyata keçirdi. Bununla separatçı rejim məhv edildi, suverenliyimiz, ərazi bütövlüyümüz tam təmin olundu, bütün Qarabağda nəzarət tamamilə Azərbaycanın müvafiq qurumlarının nəzarətinə keçdi. Daha sonra isə Azərbaycanın nəzarəti altında vətəndaş olaraq yaşamaq istəməyən ermənilər bölgəni könüllü tərk etdilər.

Mövcud durumda bütün təhlükəsizlik tədbirlərini məhz dövlətimiz həyata keçirir.

Ötən həftədən isə sülhməramlı kontingent də artıq Azərbaycanı tərk etməyə başlayıb. Faktiki olaraq Birgə Monitorinq Mərkəzinin fəaliyyətinə də ehtiyac qalmamışdı.

Müdafiə Nazirliyinin məlumatına görə, aprelin 26-da Ağdam rayonu ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin təntənəli bağlanış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Ordusunun, Türkiyə və Rusiya Silahlı Qüvvələrinin rəhbər heyəti, həmçinin hər iki ölkənin respublikamızdakı səfirləri, hərbi qulluqçular və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə hər 3 ölkənin dövlət himnləri səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının Qərargah rəisi general-polkovnik Levent Ergün və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini general-polkovnik Sergey İstrakov çıxış ediblər.

Türkiyə Respublikası və Rusiya Federasiyası arasında imzalanmış 11 noyabr 2020-ci il tarixli Memoranduma əsasən yaradılmış Birgə Monitorinq Mərkəzinin fəaliyyəti haqqında danışılıb.




2021-ci ilin yanvar ayının 30-dan regionda sülhün və sabitliyin rifahı naminə vicdanlı və cəsarətli xidmətlərinə görə türkiyəli və rusiyalı hərbi qulluqçulara minnətdarlıq ifadə olunub, onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

Həmçinin qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin 10 noyabr 2020-ci il tarixli Bəyanatına uyğun olaraq Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin də iki ölkənin ali rəhbərliyi arasında əldə olunan razılığa əsasən fəaliyyətini vaxtından əvvəl dayandıraraq ölkə ərazisindən tam çıxarılması prosesinə başlanılıb.

Bağlanış mərasimində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının və Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin iştirakı ilə bədii proqram təqdim edilib.

Beləliklə, ölkəmizin ərazisində bütün nəzarəti dövlətimiz tamamilə özü həyata keçirir.

❑ **T.ƏHMƏDLİ**
**"Yeni Müsavat"**

# Aprel işğalı - 1 ildə 48 min azərbaycanlı qətlə yetirilib

## Xalq Cümhuriyyətinin işğalından 104 il keçdi; bolşeviklər 27 aprel işğalını "unutdurmaq" üçün "28 aprel inqilabı" kimi yalan və saxta bir təqvim yaradıblar

**Bu gün 1918-ci il 28 mayda yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən işğal edilməsindən 104 il keçir.**

Məhəmməd Əmin Rəsulzadənin dili ilə desək, mahiyyət etibari ilə çar Rusiyasından fərqlənməyən bolşevik-sovet Rusiyası öz sələflərinin yolu ilə gedərək Azərbaycan Xaq Cümhuriyyətinin varlığına son qoyaraq ölkəni işğal etdi. Bu işğal faktı görünüşcə fərqli olsa da, mahiyyət etibarı ilə çar Rusiyanın işğalçılıq siyasətinin yenidən təkrarı idi. Sadəcə işğalçının adı dəyişmişdi. İşğal edən çar deyil, bolşeviklər idi.

Azərbaycan Xalq Cümhuriyyətinin mühacirətdə yaşayan liderləri (başda M. Ə. Rəsulzadə, Ə. Topçubaşov və d.) öz yazılarında, rəsmi sənədlərdə 1920-ci ilin 27 aprelini Azərbaycanın işğalı olaraq qeyd ediblər. Bu, onunla izah edilib ki, Azərbaycan dövlətinin sərhədləri bolşeviklərinin XI Ordusu tərəfindən aprelin 26-dan 27-nə keçən gecə pozulub və işğalçı qüvvələr Yalama-Xaçmaz tərəfdən ərazimizə daxil olublar.




Yeni hələ 1920-ci ilin 21 və 23 aprel tarixlərində Qafqaz Cəbhəsi İnqilab Hərbi Şurası S.Q.Orconikidzenin başçılığı ilə XI Orduya aprelin 27-də Azərbaycan sərhədini keçib, bütün ərazini tutmaq əmrini vermişdi. Aprelin 26-da XI Ordu qərargahı hücuma rəhbərlik etmək üçün Dərbəndə köçmüşdü. XI Ordunun hücumu aprelin 26-dan 27-nə keçən gecə saat 12-də başladı. İrəlidə dəstə komandiri M.Q.Yefremovun yerləşdiyi "III İnternasional" qatarı gedirdi. Yalama stansiyasında Azərbaycan Ordusu əsgərləri ilə qısa döyüşdən sonra Milli Orduya məxsus zirehli qatar geri çəkilməyə məcbur oldu. Xudat və Xaçmaz stansiyalarında da Milli Ordu əsgərləri döyüşüb müqavimət göstərdilər (bəzi mənbələrdə 1000-ə qədər əsgərin döyüşdə həlak olduğu söylənilir). Lakin onların sayı işğalçı bolşevik ordusundan olduqca az idi. Azərbaycan sərhədlərini keçən bolşevik ordusunda 60-70 min əsgər var idi. Bizim 25-30 minlik ordumuzun böyük bir hissəsi kommunistlərin göstərişi ilə Qarabağda qiyam qaldırmış ermənilərlə savaşa göndərilmişdi. 1920-ci ilin aprelin 28-də saat 5-də "III İnternasional" zirehli qatarı 23 saatlıq Yalama-Bakı məsafəsini qət edərək Bakı vağzalına çatdı və Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti hakimiyyəti bolşevik-kommunistlərə vermək barədə qərar qəbul etmək məcburiyyətində qaldı.

Professor Musa Qasımlı bu barədə bildirib ki, beləliklə, bolşeviklər məhz 28 apreli Azərbaycanda Sovet Hakimiyyətinin yaradılması günü elan edərək "28 aprel İnqilabı" olaraq dünya ictimaiyyətinə yaydılar. Yəni 27 aprel işğalı yox, yalan və saxta bir təqvim yaratdılar - 28 aprel inqilabı.

Aprel işğalı ilə əlaqədar M. Ə. Rəsulzadə yazırdı: "Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu. Beləliklə, azadlıq istiqlalımız qızıl istilaçıların ayaqları altına əyildi".

Aprel işğalından sonra Azərbaycanın seçmə ziyalılarına, hökumət adamlarına, məmurlara, əsasən də Xalq Cümhuriyyətinin qurucularına, onların ailə üzvlərinə qarşı dəhşətli repressiya başlandı. İki gün ərzində Bayıl həbsxanasında 300 nəfər güllələndi, 10 minə qədər insan Sibirə sürgünə göndərildi. Azərbaycanda bərqərar olan totalitar bolşevik hakimiyyəti ilk dövrlərdən başlayaraq bütün sahələrdə qırmızı terror siyasəti həyata keçirməyə başladı. Rəsmi arxiv sənədlərinə görə, təkcə 1920-ci ilin may ayından-1921 ilin yanvar ayınadək bolşevik hökuməti 48 min nəfər azərbaycanlını qətlə yetirib.

Azərbaycan Parlamentinin hakimiyyətin bolşevik-kommunistlərə təhvil verilməsi ilə bağlı qəbul etdiyi 1920-ci il 27 aprel qətnaməsini kobud şəkildə pozan bolşevik hökuməti Müstəqil Azərbaycan dövlətinin bütün atributlarını məhv edərək, siyasi elitasını, demək olar ki, qətlə yetirdi və ya sürgün həyatına məcbur etdi. Dövlətin hərbi elitası isə may-iyun aylarında rus işğalına qarşı mübarizədə məhv edildi.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024



# Ölü dirildən televizor

Zamin HACI
zaminhaci@gmail.com

**Mən də Milli Məclisin bəyanatına qoşuluram, doğrudan, heç kəs Azərbaycanı demokratik inkişaf yolundan döndərə bilməz.**

Sabirabad tərəflərdən bir kişi vardı, Bakıda nəsə tikinti şirkəti qayırıb 12 nəfərə qarşı dələduzluq törətmişdi. Sonra xəbər çıxdı, bunun kənd yolunda maşında yanıb öldüyü deyildi. Ekspertiza-zad, müstəntiq-filan da təsdiqləmişdi ki, kişi ölüb, ta neynəmək olar, sizin pulunuzu hardan qaytaraq. Ancaq 6 ay keçmiş kişi Bakıdan, diri şəkildə, xortlayıb çıxdı. Şəxsiyyət vəsiqəsiylə dükandan, kreditə televizor almağa gedibmiş!

Sən bunda ağıla bax. Maşına da it leşi qoyub, yandırıbmış, beləliklə dövlətçiliyimizi aldatmaq istəyirmiş. Ay hay. Televizordan heç kim qaça bilməz. Böyük Qardaş səni izləyir, necə deyərlər. İndi bunun məhkəməsi bitdi, 8 il həbs cəzası verdilər. İnşallah, bir neçə ilə Mübariz müəllimin verilişinə çıxıb ağlaşma quracaq, xalqımız da "ayə, bu cür ağıllı kişini tutmaq günahdır, xahiş edirik buraxın" deyəcəkdir.

Sonra ağız büzürsünüz, xalq televizora baxmır, efir-ekran pıxıdır deyirsiniz. Mavi ekran böyük qüvvədir. Faktiki ölünü diriltdir. (Pulum olsa ŞNTV kanalı açardım - Şeyx Nəsrullah Televiziyası). Əgər verilişlər maraqsız olsaydı, adam riskə girib televizor almaq üçün dükana gedərdimi? Bu baxımdan, hüquq-mühafizə orqanları, zəhmətkeşlərimiz, o cümlədən, hələ məskunlaşmamış Füzuli rayon məcburi köçkünləri adından ekran işçilərinə, başda Xoşqədəm xanım, Elgiz müəllim, Tolik müəllim, Zaurların hər ikisi olmaqla, dərin minnətdarlığımızı bildirirəm. Mikrofonunuz uzun olsun. Şair demişkən: "Vurmazam sihhət üçün məlhəm oxun yarəsinə, İstərəm çıxmaya zövqi-ələmi-peykanın". Bunlar hamısı axirətin varlığına dəlillərdir.

Sabunçu rayonundan bir sakin də təzəlikcə şikayətlənirdi. Deyir ünvanlı sosial yardım, ya da işsizlik pulu - dəqiq yadımda qalmayıb - almaq üçün nazirliyin portalına girib, görüb orda rəsmi şəkildə işçi kimi qeydiyyatdadır. Hətta ayda 380 manat maaş alırmış. Lakin neçə illərdir bundan xəbərsizdir, elə zənn edir işsizdir. Başa düşmədim nədən narazıdır.

Görün bizdə iqtisadi inkişaf hansı səviyyədədir! Camaat işləməsə belə adına maaş yazılır. Hələ çoxlu adamın şirkətləri, bankları, zavodları var, lakin xəbərləri yoxdur. Biz əvvəldən demişik, qoy kim istəyir oğurlasın, axırda hamısı xalqa qalacaq. Adəm Həvvaya uyub cənnətdən qovulmuşdu, biz isə Adəmin atasına 30 sutka verib dama saldıq. Günah eləməyə qoymadıq.

Hər şeyin zamana ehtiyacı var, böyük bəy demişkən. Bağban tələsər, armud vaxtında yetişər. Hara tələsirik? Xalq yazıçımız Anar müəllim də öz əsərlərində daim bunu vurğulayıb, tələsməməyə səsləyibdir.

Sərhədlərimizin bağlı olmağının turizm sektoruna guya ziyan vurduğu deyilir. Lakin Statkom rəqəm açıqlayır, görürük əksinə, inkişaf vardır, keçən ilin müvafiq dövrünə nisbətən beş kişi də artıq gəlibdir. Üstəlik, bütün dünya turistlərdən bezməkdədir. Dünən Yaponiya haqda bir xəbər oxudum, qımışdım, kefim açıldı. Orda bir rayonda dükan-filan olan yer varmış, həmin yerdən baxanda Fudziyama dağının qəşəng mənzərəsi görünür. Bütün turistlər məhz həmin mənzərəni fotoya-zada almaq üçün o yerə axışırmış. Dodağını büzüb selfi çəkdirən, kamerada dağı qucaqlayan, özünü zirvəyə "keçirdən", nə bilim, nə zibil qaynadan... Hətta bəzi yaramaz turistlər ərazidəki diş klinikasının damına dırmaşıb ordan şəkil çəkirmiş. Nəticədə xalq bezib, turistlərdən yuxarılara şikayət yazıb. Hökumət də gəlib, o yerdə yekə, hündür hasar çəkib. Ta dağ görünmür. İndi gözləyirlər, turistlərin yadından çıxsın, sonra hasarı sökəcəklər.

Bizim məmurlar Xəzəri, dağı-daşı, meşələri hasarlayanda bəyənmirsiniz. Uzaqgörən addımdır.

Bircə yaponlardan xarakiri eləməyi də öyrənsələr lap əla olardı. Bəzi eks-məmurların son günlərdəki hərəkətləri bu istiqamətdə də irəliləyiş olduğunu göstərir. Xəncər olmasın, tüfəng olsun. Xalq üçün əhəmiyyəti dəyişmir.




# Azərbaycan üçün kritik tarix - gələn ilin ilk aylarında...

## Yeni prezident fəaliyyətə başlayan kimi ABŞ İsrailə müharibə icazəsi verəcək

**Bu həftə ABŞ Konqresinin təsdiqlədiyi mühüm sənədlər arasında, sözsüz ki, Ukrayna və İsrailə yardım haqda qərar (müvafiq surətdə 61 və 6.4 milyard) tarixi önəm kəsb edir. Qalır mümkün nəticələr. Bununla bağlı gözləntilər isə müxtəlifdir.**

Siyasi ekspertlər hesab edir ki, 6.4 milyard dollar olduqca böyük məbləğdir. Məntiqlə belə anlaşılır ki, İsrailə həmin vəsait HƏMAS-la savaşmaq üçün verilmir. İsrailin əsas böyük düşməni İrandır. Ayrılan vəsaitin mühüm qismi İranla mübarizəyə sərf olunacaq.

ABŞ rəsmilərinin İsraillə İran arasındakı son gərginlikdə "sülhpərvər" mövqe tutmasının aldadıcı manevr olduğu bildirilir. Hesab edilir ki, Co Bayden hakimiyyəti sadəcə, qarşıdakı prezident seçkiləri ərəfəsində gərginlik istəmədiyi üçün bu ritorikanı mənimsəyib. Seçki bitdikdən sonra isə Co Baydenin belə bir təlaşı qalmayacaq. Çünki həm yaşı kifayət qədər çoxdur, həm də səhhəti ürəkaçan deyil. Üstəlik, qanunən də onun üçüncü dəfə seçilmək şansı yoxdur. Adətən ABŞ-ın bütün prezidentləri ikinci dəfə seçildikdən sonra bu cür qeyri-populyar addımlar atırlar. Məhz bu səbəbdən siyasi analitiklər İran-İsrail gərginliyinin gələn ilin ilk aylarından artacağını proqnoz verirlər. Seçkilərə qədər isə İsrailin İranın proksi qüvvələrini sıradan çıxarmaqla məşğul olacağı gözləniləndir.

Bundan isə belə nəticəyə gəlmək olar ki, 2025-ci ilin ilk ayında İrana qarşı İsrail-ABŞ hücumu ola bilər? Bəllidir ki, İsrail bizim strateji tərəfdaşımız, 35-40 milyon soydaşımızın yaşadığı İran isə qonşumuzdur.

Müharibə perspektivi real olduğu üçün Bakı buna hazırlaşmalıdır.

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bu barədə bildirdi ki, bütün gedişat İsraillə İran arasında müharibənin qaçılmaz olduğunu göstərir. İsrailin uzun müddətdir ki, İranla müharibəyə hazırlaşdığı və bu məqsədlə də öz hərbi arsenalını gücləndirdiyi məlumdur. Hələ 2018-ci ildə Tramp hakimiyyəti dövründə 10 il müddətinə 38 milyard dollar yardımın ayrılması, keçən il ərzində İsrailin təkcə ABŞ-dan 61 döyüş təyyarəsi, Almaniyadan 4 hərbi gəmi alması və bu il ABŞ tərəfindən yünidən 26.4 milyard dollar vəsaitin ayrılması, eləcə də yardım paketinə əlavə olaraq dəyəri bir milyadr dollar olan mərmi və bombaların göndərilməsi onu deməyə əsas verir ki, İsrail İranla müharibəyə hazırlaşır. Aydındır ki, bu qədər vəsait, silah və texnika İsrailə Həmasla müharibə üçün göndərilmir: "İsrailə qarşı vuruşan proksi qüvvələrin demək olar ki, hamısının arxasında İranın dayandığını kifayət qədər yaxşı bilən İsrail ayrı-ayrı qüvvələrlə müharibə aparmaqdansa bu proksi qüvvələri maliyyə və silah-sursat baxımından təmin edən İranla müharibəyə üstünlük verir. Elə Dəməşqdəki İran səfirliyinin bombalanması, onun ardınca İsfahana endirilən zərbələr də İranı birbaşa müharibəyə çəkmək məqsədi daşıyırdı.

ABŞ isə indiki dönəmdə hələ ki, müharibədən qaçmağa səy göstərir. Çünki ölkədə seçki ilidir və İranla müharibənin uzun sürməsi halında, yəni Rusiya ilə olduğu kimi fiaskoyla üzləşəcəyi halda bu Bayden hakimiyyətinin seçkiöncəsi nüfuzuna böyük ölçüdə təhdid yarada bilər. Odur ki, indi Ağ Ev bütün imkanları ilə İsraili bu hücumdan yayındırmağa cəhd edir. Amma o da məlumdur ki, Bayden üçün seçki ilində yəhudi lobbisinin dəstəyi olduqca vacibdir. Odur ki, İsrail müharibəni elə indi başlaya və ABŞ-ı, eləcə də digər müttəfiqlərini fakt qarşısında da qoya bilər. ABŞ açıq şəkildə bəyan edib ki, biz İranla İsrail arasında müharibəni istəmirik, amma əgər belə bir müharibə başlayacaqsa, biz bütün gücümüzlə İsrailin yanında yer alacağıq".

Politoloq hesab edir ki, ona görə də müharibənin indi və ya ABŞ-dakı Prezident seçkilərindən sonra başlayacağından asılı olmayaraq region ölkəsi kimi biz də buna hazır olmalıyıq: "Təbii ki, Azərbaycan bu müharibədə öz neytrallığını qoruyub saxlayacaq. Amma İrana hücum orada yaşayan milyonlarla soydaşımızın sığınacaq üçün bizə üz tutmasına səbəb olacaq ki, məhz buna da hazır olmaq lazımdır. Çünki belə bir hal bizim üçün olduqca böyük təhdid yarada bilər".

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov isə bildirdi ki, Yaxın Şərqdə baş verən münaqişələr bir sıra mülahizələri aktuallaşdırır, önə çıxarır. Sanki uzun illər ərzində rəqabət müstəvisində olan, lakin aktiv hərbi əməliyyatlara qoşulmayan dövlətlər də bu gün dünyadakı xaos, anarxiya, beynəlxalq hüququn işləməməsi fonunda bütün mübahisələri döyüş meydanında həll etmək niyyətini büruzə verirlər. Bu, çox təhlükəli tendensiyadan xəbər verir, çox narahatedici məqamdır. Eyni zamanda İran və İsrail arasında müharibənin olacağına dair ehtimallar gün-gündən çoxalmaqdadır. Bu Azərbaycan üçün də bir sıra çağırışları formalaşdırır: "Biz İsraillə çox yaxşı strateji münasibətləri olan, hərbi, enerji, mədəni, humanitar, iqtisadi, siyasi müstəvidə çox yaxşı anlaşa bilən dövlətlərik. Həmçinin Azərbaycanda böyük yəhudi icması da mövcuddur. Bu münasibətləri yaxınlaşdıran məqamdır. Lakin digər tərəfdən İran ərazisində də çoxmilyonluq Azərbaycan türkləri var. Bu da nəzərə alınası məqamdır. Azərbaycan bu ziddiyyətli vəziyyətdə tutduğu mövqe ardıcıldır və prinsipaldır. Biz ölkəmizin hava məkanından, ərazisindən İran qarşı istifadə edilməsinə icazə vermirik. Hətta münasibətlərimizdə gərginliklər yaşansa da Azərbaycanın bu məsələdə mövqeyi dəyişməz olaraq qalır. Bu da çox mühüm bir amildir. Çünki bizim üçün ərazi bütövlüyü, suverenlik, daxili işlərə qarışmamaq beynəlxalq hüququn fundamental norma və prinsipləri sırasındadır. Biz bu mövqeyimizə sadiqik. 2025-ci ildə İsrail-İran müharibəsi olarsa, bunun Azərbaycana hansı təsirlərinin olacağı haqqında düşünərkən burada ilk növbədə iqtisadi zərərlərin meydana gəlməsi, qaçqınlar problemi ilə üzləşməyimiz kimi çox ciddi problemlərin yaranması ehtimal olunur. Ona görə də Azərbaycan hər bir varianta hazır olmaqla yanaşı, bütün məsələlərin danışıqlar masası ətrafında, diplomatik yolla həll edilməsinin tərəfdarıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Bakının keçilməz “qırmızı xətti” - Ermənistan konstitusiyası dəyişməlidir!

## Rəsmi İrəvan fürsəti dəyərləndirə bilməsə, tarixi şansı qaçıracaq və uduzacaq; ekspertlərdən ilginc açıqlamalar

**Ermənistan konstitusiyasında qondarma “Dağlıq Qarabağ”ın Ermənistanın bir hissəsi olması haqda qeyd qaldıqca İrəvanla sülh sazişi imzalana bilməz.**

Bunu Azərbaycan prezidenti İlham Əliyev “COP 29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilən beynəlxalq forumda çıxışı zamanı deyib.

“Ona görə də mən onların konstitusiyasının dəyişməli olduğunu deyəndə bu, heç də təkəbbür və ya kobudluq deyil. Xeyr. Bu ilkin şərtdir. Eyni ilə mən hesab edirəm ki, onlar Ağrı dağı olan milli gerblərini də dəyişdirməlidirlər. Onların Ermənistanda çoxlu dağları var, qoy başqasını seçsinlər. Təbii ki, bu və bir çox başqa məsələlərdə Azərbaycanla Türkiyə arasında koordinasiya mövcuddur. Çünki ölkələrimiz qlobal miqyasda bir-birinə ən yaxın iki ölkədir. Bizi təkcə Müttəfiqlik Münasibətləri haqda Bəyannamə deyil, bir çox başqa şeylər birləşdirir, hansı ki, regional təhlükəsizlik və sabitlik üçün mühüm amildir. Mən Türkiyə-Azərbaycan birliyini nəzərdə tuturam”, - Prezident vurğulayıb.

Prezident bildirib ki, həm Azərbaycan, həm də Türkiyə belə bir oturuşmuş mövqeyə sadiqdirlər ki, hər iki proses - Türkiyə-Ermənistan yaxınlaşması və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması paralel getməlidir. “Bu, bizim də, Türkiyə prezidentinin də mövqeyidir. İdeal vəziyyət o olardı ki, gözəl bir gündə iki müqavilə imzalanaydı... İndi nə gözləyirik? Biz Ermənistan hökumətinin sözdən əmələ keçməsini gözləyirik. Biz onları əməllərinə görə mühakimə edəcəyik. Onlar başa düşməlidirlər ki, Türkiyə-Azərbaycan ittifaqı qaya kimi möhkəmdir. Onlar bunu indi də, gələcəkdə də nəzərə almalıdırlar”, - Azərbaycan lideri bildirib.

İlham Əliyev onu da deyib ki, COP29-dan əvvəl (noyabr, 2024) Azərbaycanla Ermənistan arasında sazişə nail olmaq, ən azı baza prinsipləri üzrə razılığa gəlmək tam real görünür. Dövlət başçısına görə, baza prinsipləri üzərində razılığa gəlmək, həmçinin variant hesab olunur, sonra isə müddəaların təfərrüatlarına vaxt sərf etmək olar. “Hətta sazişin layihəsi hazır ola bilər. Düşünürəm ki, bunun üçün hər iki tərəf, sadəcə ürəkdən çalışmalıdır”, - deyə Prezident diqqətə çatdırıb. Belə aydın olur ki, rəsmi İrəvan fürsəti dəyərləndirə bilməsə, tarixi şansı qaçıracaq və uduzacaq. Dövlət başçımızın xəbərdarlığı çox şey deyir.

Bəs Ermənistan öz konstitusiyasını nə vaxta qaydaya salmağa, beynəlxalq hüquqa uyğunlaşdırmağa başlayacaq, 2024-də bu mümkünmü?

Deputat Ceyhun Məmmədov “Yeni Müsavat”a bildirdi ki, bu məsələ dəfələrlə Prezident İlham Əliyev tərəfindən qaldırılıb: “Ermənistanın Konstitusiyasında bu cür müddəaların əksini tapması




qəbuledilməzdir. Qarabağ Azərbaycan ərazisidir. Ağrı dağı isə Türkiyəyə məxsusdur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu gün Azərbaycanla Türkiyə arasında bir çox məsələlərlə bağlı geniş müzakirələr aparılır. Ermənistan bu müttəfiqliyi ciddi nəzərə almalı, hər iki dövlətlər münasibətlərini düzgün tənzimləməlidir”. Konstitusiyaya dəyişikliklə bağlı məsələyə gəldikdə, C.Məmmədov bunları söylədi: “Bir müddətdir bu məsələ Ermənistan cəmiyyətində geniş müzakirələr aparılır. Ermənistan bu dəyişikliklərə mütləq getməli və Azərbaycanın şərtlərini qəbul etməlidir. Hesab edirəm hazırda Ermənistan hökuməti bu prosesə hazırlaşır. Ola bilsin yaxın vaxtlarda bu barədə elan verilsin və artıq proses başlanılsın”. Deputat hesab edir ki, hətta bu il müsbət nəticə əldə etmək mümkündür: “Bu il olmasa, Ermənistan gələn ilin əvvəlinə kimi prosesi yekunlaşdıra bilər. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu məsələ həllini tapmadan hansısa yekun sənəd imzalana bilməz”.

Azad Vətən Partiyasının sədri Akif Nağı bildirdi ki, Ermənistan hələ də konstruktivlikdən uzaq mövqe sərgiləyir: “4 kəndin qaytarılması ilə bağlı Ermənistanda baş verən hadisələr, aqressiya, hikkə bir daha göstərur ki, bunlar "ağıllanmaq" fikrindən çox uzaqdırlar, hələ də mağara psixoligiyası ilə sürünür, reallığı düzgün qiymətləndirə bilmirlər. Ən xarakterik hadisələrdən biri qondarma “soyqırım abidəsi”nin qarşısında baş verdi, vəhşiləşmiş sürü az qalmışdı ki, Paşinyanın arvadını, kiçik yaşlı qızını linç etsin. Bu, hamının gözü qarşısında baş verdi və Paşinyanın qanına susamış sürünü nümayiş etdirdi. Bunlar başa düşmürlər ki, Azərbaycan qanuni haqqını tələb edir və haqqını hökmən alacaq. Bu kəndlər Azərbaycana qaytarılmalıdır. Adi məntiq bunu tələb edir. Və yaxud məsələni başqa cür qoyaq, bu, kütləvi psixoz vəziyyətində olan sürü başa düşmək istəmir ki, 4 kəndin Ermənistanda qalması onlara heç nə verməyəcək. Bunlar öz aləmlərində 4 kəndi “xilas” etməyi həyatlarının mənasına çeviriblər. Paşinyan isə Ermənistanı xilas etməyə, real erməni dövlətini yaratmağa çalışır".

A.Nağı qeyd etdi ki, bu vəziyyətdə Paşinyanın irəli getməkdən başqa yolu qalmayıb, dayansa və ya geriyə çəkilsə, onu bu vəhşiləşmiş sürü dərhal “yeyəcək”: “Məncə, Paşinyan bunu başa düşür, ona görə də sülhə doğru hərəkətini davam etdirir. Bu, onun üçün yeganə ”xilas kəməri" ola bilər. Yəni bununla Azərbaycan və Türkiyənin dəstəyini qazana, bu balaca dövlətlərini qoruyub saxlaya, özünü də xilas edə bilər. Ona görə də, yaxın vaxtlarda sülh müqaviləsinin imzalanmasına və yaxud ona doğru böyük bir addımın atılmasına şahidlik edə bilərik".

Partiya sədri vurğuladı ki, Prezident İlham Əliyev konstitusiya ilə bağlı məsələni də konkretləşdirdi: “Revanşistlər Ermənistanda belə fikir yaratmağa çalışırlar ki, Paşinyan Əliyevin diktəsi ilə konstitusiya və gerbin dəyişdirilməsinə gedir. Cənab Prezident bu tezisi də onların əlindən aldı ki, biz nəyinsə dəyişdirilməsini tələb etmirik, sadəcə, konstitusiyasında Azərbaycana ərazi, gerbində Türkiyəyə əsassız iddiasının yer aldığı bir ölkə ilə münasibətlərin normallaşdırılmasını mümkünsüz hesab edirik. Bununla prezident Paşinyana da pas ötürmüş oldu ki, vəziyyətdən çıxa, sürüyə bu mətləbi izah edə bilsin. Bütün bunlar müsbət gəlişməyə ümidləri artırır. Bir mesaj da Azərbaycan-Türkiyə monolit birliyi ilə bağlı verildi. Mesajın mahiyyəti ondan ibarətdir ki, xeyir tapmaq istəyirsinizsə, bu birliyin kölgəsinə sığının”.

Politoloq Tural İsmayılov bu fikirdədir ki, Ermənistanda konstitusiya dəyişikliyini təkcə revanşistlər yox, Fransa və istismarçı Qərb dairələri də istəmir: “Konstitusiya dəyişikliyi məsələsində də Ermənistan müstəqil siyasi qərarlar almaqda acizdir. Azərbaycanın razılığı alınmadan Ermənistan ərazilərində Aİ mülki missiyası adı altında Qərbin müxtəlif strukturlarını toplayan Ermənistandakı ”soros-çu" Paşinyan hakimiyyəti Qərblə əlaqələri dərinləşdirmək adı altında “ikinci Maydan” ssenarisini həyata keçirməyə çalışır. Faktiki olaraq bu gün Qərb Ermənistan ərazilərində Azərbaycan, Rusiya, Türkiyə və İran əleyhinə yeni kəşfiyyat plasdarmları formalaşdırmağa çalışır. Bütün bunların fonunda bu gün Ermənistanın yerləşdiyi geosiyasi durumu təhlil etməyən, Ermənistanın inkişafını istəməyən, Ermənistandan ancaq özünün siyasi məqsədləri üçün istifadə etmək istəyən başda Fransa və ABŞ-dakı ermənipərəst dairələr olmaq üzrə Qərb strukturları bölgəni qarışdırmaq üçün Ermənistanı yenidən qızışdırmağa çalışırlar".

Politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Azərbaycanla Ermənistan arasında dörd kəndlə bağlı razılıq əldə edilməsi o demək deyil ki, sülh müqaviləsi tezliklə bağlanacaq: “Təbii ki, bu, ikitərəfli etimadın yaradılmasına xidmət edir. Amma, sülh müqaviləsi üçün ilk növbədə Ermənistan tərəfindən hüquqi təminat lazımdır. Bu hüquqi təminat olmadan Azərbaycan rəsmi İrəvanla sülh müqaviləsi bağladıqdan sonra belə, növbəti erməni hakimiyyəti sülh müqaviləsini konstitusiyaya ziddi hesab edərək birtərəfli şəkildə çıxa bilər. Ona görə də cənab Prezident İlham Əliyev sülh müqaviləsi üçün ilkin şərt olaraq Ermənistan qanunvericiliyinin dəyişdirilməsini şərt kimi irəli sürüb. Çünki Ermənistan konstitusiyası Müstəqillik Bəyannaməsinə əsaslanır və həmin Bəyannamədə Qarabağ Ermənistanın ərazisinə şamil edilib. Odur ki, ilk növbədə Ermənistan konstitusiyası və qanunvericiliyi dəyişməlidir. Həmçinin cənab Prezident İlham Əliyevin Türkiyəyə qarşı ərazi iddialarının da Azərbaycan üçün qırmızı xətt olduğunu qeyd etməsi iki qardaş ölkənin müttəfiqliyinin əbədi və sarsılmaz olduğunu ortaya qoydu”. M.Əsədullazadə hesab edir ki, top Ermənistan tərəfindədir: “Bununla Azərbaycan Ermənistanı normal bir dövlətə çevirə bilər. İndiki qüvvədə olan konstitusiya Ermənistanı işğalçı və forpost edib. Bu qanunvericilik qonşularla düşmənçiliyi rəsmiləşdirib. Ona görə də baza prinsipləri üzərində saziş imzalansa da, sülh müqaviləsi üçün Ermənistan yayda ya payızda referendum keçirə bilər. Bunun üçün vaxt var. Əgər Nikol Paşinyan sülhün bu il bağlanmasına getmək istəyirsə, ilk olaraq referenduma getməlidir. Fikrimcə, Paşinyan da konstitusiyanın yenidən yazılmasında maraqlıdır. Hazırda sülhün gecikməsi İrəvandan asılıdır. Bu ilin axırına kimi referendum gedib, növbəti ilin yanvar və fevral aylarında sülh müqaviləsinin bağlanması mümkün ola bilər”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**



## XİN: “Sanksiya çağırışları yalnız Azərbaycan və Aİ arasında münasibətləri mürəkkəbləşdirir”

**Avropa Parlamentini bir daha Azərbaycanın daxili işlərinə və məhkəmə proseslərinə müdaxiləni dayandırmağa çağırırıq. Musavat.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Avropa Parlamentinin 25 aprel 2024-cü il tarixli qətnaməsi ilə bağlı bildirib.**

O qeyd edib ki, Avropa Parlamenti tərəfindən qəbul edilən qətnamə əsassızdır və Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyəti açıq şəkildə təhrif edir:

“Bu kimi birtərəfli və qərəzli qətnamələrin adekvat olaraq dəyərləndirilmədən avtomatik şəkildə qəbulu Avropa Parlamenti üçün çoxdan adi hala çevrilib.

Bu addım, Avropadakı bir sıra qüvvələrin Azərbaycanla münasibətlərin daha da pisləşməsinə yönəlmiş açıq siyasi sifarişindən başqa bir şey deyil".

XİN rəsmisi vurğulayıb ki, belə mühitdə, Avropa Parlamentinin öz daxili mülahizələrini və şəxsi mənfəətlərini rəhbər tutan müəyyən qrup üzvləri sadəcə Azərbaycandakı vəziyyətin təhrif olunmuş mənzərəsini irəlilətməklə məşğuldurlar:

“Bu qəbildən sənədləri qəbul etməyi təşviq edənlərin niyyəti həmçinin diqqəti Avropa cəmiyyətinin həqiqətən aktual sosial-iqtisadi və siyasi problemlərindən yayındırmaqdır.

Bundan əlavə, Azərbaycana qarşı sanksiya çağırışları yalnız Azərbaycan və Avropa ittifaqı arasında münasibətləri mürəkkəbləşdirir".

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024

# İrəvanın Bakıdan qaz(lı) istəyi - nə vaxt və hansı qiymətə...

## İqtisadçı: "Ermənistanla qarşılıqlı asılılıq yaradacaq layihələr nə qədər çox olsa, bir o qədər yaxşıdır, dayanıqlı sülhə təminat verən məsələdir"

**"Ermənistan Azərbaycandan qaz almaq məsələsini müzakirə etməyə hazırdır". "Yeni Müsavat" xəbər verir ki, bunu Ermənistan parlamentinin spikeri Alen Simonyan aprelin 25-də keçirdiyi brifinqdə bildirib.**

"Ermənistanın Azərbaycandan qaz almasını müsbət hesab edirəm, bu məsələni müzakirə etməliyik. İndi də Rusiyadan aldığımız qazın bir hissəsi Azərbaycan qazıdır", - Simonyan əlavə edib.

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyev gələcəkdə Ermənistanın Azərbaycan qazını ala biləcəyini istisna etməyib. Bu barədə o, aprelin 24-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışı zamanı deyib: "Bu gün biz Gürcüstanın qaza olan tələbatını demək olar ki, 100 faiz ödəyirik. Təchizat həcmi ildən-ilə artır və hesab edirəm ki, 3 milyard kubmetrə çatıb. Potensial olaraq, Gürcüstan üçün qazın qiymətinin əlverişli və güzəştli olduğunu nəzərə alsaq, Ermənistan da Azərbaycan qazını ala biləcək. Yaxınlıq və infrastruktur nəzərə alınarsa, təbii ki, bu cür əməkdaşlıq təbii olardı".

Lakin Prezident hesab edir ki, belə əməkdaşlıq Azərbaycanla Ermənistan arasında münasibətlər normallaşdıqdan və sülh müqaviləsi imzalandıqdan sonra mümkündür.

Onu da bildirək ki, Ermənistan ötən ildən etibarən Rusiyadan olan qaz asılılığını azaltmaq üçün əlavə mənbələr axtarışına çıxıb. Rusiya ilə münasibətləri getdikcə soyuqlaşdıran Paşinyanın qaz kimi strateji məhsulla təminat mənbələrini genişləndirməyə çalışması açıq hiss olunur. Ötən il Ermənistan İran vasitəsilə Türkmənistandan qaz almaq üçün cəhdlərini gücləndirib. İrəvan Türkmənistandan qazın İran üzərindən svopla ötürülməsini istəyir. Hələlik Türkmənistan bu istiqamətdə İrəvandan edilən təklifləri müsbət cavablandırmayıb.

Rusiya mənbələrinin iddiasına əsasən, Türkmənistanın İrəvanın təkliflərinə müsbət cavab verməməsinin arxasında məhz Moskvanın mövqeyi dayanır. Avropanın qaz bazarından tamamilə çıxmaq üzrə olan Rusiyanın Ermənistana qaz tədarükü imkanını da itirmək istəməməsi, həmçinin qaz kimi strateji məhsulla bağlı rəsmi İrəvana təzyiq rıçağını əldən verməməyə çalışacağı gözləniləndir.

Ötən ilin payızında İranın İrəvandakı səfiri Mehdi Sübhani bəyan edib ki, ölkəsi Ermənistan bazarında Rusiya qazını tamamən əvəz etməyə hazırdır. Lakin İrandan Ermənistana qaz ötürən kəmərin maksimum gücü 2 milyard kubmetrdir - İrəvan ildə Rusiyadan 2,5 milyard kubmetr qaz alır.



2021-ci ilin dekabrında Rusiya qazının Ermənistan üçün (sərhəddə) 10 il ərzində topdansatış qiyməti min kubmetr üçün 165 dollar müəyyən edilib (Rusiya qazı bundan ucuz yalnız Belarus və Qırğızıstana satılır). Bu dəyişikliklər 2013-cü ilin dekabrında imzalanmış sazişə (ev təsərrüfatları və müəssisələr üçün yekun tariflər bu qiymətdən və Ermənistan daxilində qaz tədarükü üçün əlavələrdən ibarətdir) edilib. Bunun müqabilində respublika Rusiya qaz korporasiyasına məxsus olan Razdan-5 İES-in təmiri üçün "Qazprom"a hər il müəyyən məbləğ (illik 31,79 milyon dollar) ödəyəcəyini öhdəsinə götürüb (stansiya bu pulu hətta fəaliyyət göstərməsə belə alacaq-red.).

Dekabrın 15-də respublikanın baş nazirinin müavini Mger Qriqoryan bildirib ki, Rusiyadan Ermənistana idxal olunan təbii qazın qiyməti 2024-cü ildə dəyişməyəcək və müvafiq olaraq yerli istehlakçılar üçün tarif də dəyişməyəcək.

Ermənistan İrandan qazı mübadilə ilə alır - əvəzini elektrik enerjisi ilə ödəyir. Bu mübadilə 2009-cu ildən başlanıb, 2026-cı ildə bitməliydi, 2023-cü ilin avqustunda onun müddəti 2030-cu ilədək uzadılıb. Ermənistan bu ölkədən aldığı illik 365-400 milyon kubmetr qazın əvəzinə hər kubmetr qaza görə 3 kilovat/saat elektrik enerjisi verir. İrəvan bu həcmi ikiqat artırmaqla bağlı İranla razılıq əldə edib. İran qazı Rusiya qazından baha başa gəlsə də, bu, Ermənistanı çəkindirmir. Çünki Rusiyaya ödəniş pulla, İrana isə elektrik enerjisi ilə edilir. 2022-ci ildə Ermənistanda İtaliya şirkətinin inşa etdiyi yeni istilik elektrik stansiyası işə salınıb. Bu, elektrik enerjisi istehsalını artırmağa imkan yaradır. İrandan alınan qazın 1 kubmetrindən 5 kilovat/saat elektrik enerjisi əldə edən Ermənistan onun 3-nü İrana qaytarır, 2-ni isə əhalinin aztəminatlı təbəqələrinə verir. Kifayət qədər əlverişli olan bu alveri genişləndirmək üçün Ermənistandan İrana 3-cü yüksək gərginlikli elektrik ötürücü xətti çəkilir, lakin artıq 8 ildir tikinti başlayıb, bitirilməsi uzanır.

Belə bir şəraitdə Ermənistanın Azərbaycandan qaz alışını bərpa etmək istəyi getdikcə artır. 2023-cü ilin oktyabrında Ermənbistanın Ərazi idarəetmə və infrastruktur nazirinin müavini Akop Vardanyan bildirib ki, siyasi məsələlər həll olunarsa, Ermənistan Azərbaycandan qaz kəmərlərini bərpa etməyə hazırdır. Həmin nazirlik bu ilin fevralında açıqlama yayaraq, Sovet dövründə Ermənistan və Azərbaycanın qaz nəqli sistemlərini bir-biri ilə əlaqələndirən magistral qaz kəmərləri və onların bərpaya ehtiyac duyulan hissələrini göstərib.

Bunlar aşağıdakılardır:

Qazax - İrəvan, diametri 1000 mm, 6 km bərpa edilməlidir;

İliçevsk (Naxçıvan) - İrəvan, diametri 700 mm, 22 km bərpa edilməlidir;

Diametri 700 mm olan Naxçıvan-Gorus, 16,5 km-i bərpa olunmalıdır.

Hətta bu kəmərlə işə salınmasa belə, ilkin mərhələdə Azərbaycandan Ermənistana qaz ötürülməsi üçün hazır infrastruktur var. Söhbət Gürcüstan üzərindən keçən Hacıqabul - Qazax - Saquramo magistral boru kəmərindən gedir. Kəmər 1978-ci ildə inşa olunub və 1988-ci ilə kimi istismar edilib. SSRİ-nin süqutundan sonra bu boru kəməri uzun müddət istifadəsiz qalıb. Bu magistral boru kəməri üzrə müvafiq bərpa-təmir işləri aparılandan sonra 2006-cı ildə yenidən istismara verilib. Ötürmə qabiliyyəti ildə 8,7 milyard kubmetr olan bu kəmər vasitəsilə Azərbaycandan Gürcüstana ildə təqribən 1,300 milyard kubmetr qaz ixrac olunur. Boru kəmərinin uzunluğu 478,4 km təşkil edir, bunun 378,4 km-lik hissəsi Azərbaycanın ərazisinə düşür. Hacıqabul-Qazax-Saquramo magistral qaz boru kəmərinin operatorları SOCAR və Gürcüstanın Qaz Nəqliyyat Şirkətidir.

Xatırladaq ki, 2021-ci ilin yazında Rusiyadan təbii qaz bir neçə həftə ərzində məhz bu kəmər vasitəsilə ötürülüb. Qazın tranzitinə dair müqavilə SOCAR və "Qazprom Export" şirkəti arasında imzalanıb. Həmin vaxt Rusiya tərəfi Gürcüstana qaz ötürən "Şimali Qafqaz - Zaqafqaziya" qaz kəmərində planlı təmir işləri həyata keçirirdi. Buna görə də Ermənistandakı istehlakçılara qaz tədarükü Azərbaycan ərazisi ilə davam etdirilib.

Sovet dövründə Azərbaycandan Ermənistanın özünə qaz xətti çəkilmişdi. Tovuz rayonundan Ermənistanın Noyamberyan rayonuna uzanan boru xəttilə ötürülən qazın bir hissəsi Naxçıvana çatırdı.

Hazırda Azərbaycan işğaldan azad olunan ərazilərin qazlaşdırılması üçün müvafiq boru xətlərinin çəkilişini həyata keçirir. Rəsmilərin dediyinə görə, bu kəmərlərin layihələndirilməsi zamanı ərazilərin inkişaf planları, həmçinin Naxçıvana mümkün ixrac həcmləri də nəzərə alınır. Bu isə o deməkdir ki, İrəvan yekun sülh sənədinin imzalanmasından sonra Azərbaycandan qaz alışına da başlayarsa, nəqli ciddi xərc çəkmədən yoluna qoymaq mümkün ola bilər.

İqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, Ermənistanın illik qaz istehlakı, təqribən, 2,7-2,8 milyard kubmetrdir: "2023-cü ildə Rusiya Ermənistana 2,44 milyard kubmetr qaz satıb, yəni təqribən 85 faiz qaz tələbatını Rusiya ödəyib, yerdə qalan 15 faizə yaxın qazı isə İrandan alır. Ermənistanın bütün qaz infrastrukturu "Qazprom Ermənistan" şirkətinə məxsusdur, bu şirkətin 100 faiz səhmləri Rusiyanın "Qazprom" şirkətinə aiddir. Bundan başqa, Ermənistanın daxili qaz boru kəmərlərinin də sahibi Rusiyadır. Rusiya Ermənistana qazı hər 1000 kubmetr üçün 165 dollara satır - kifayət qədər ucuz qiymətdir, amma burada başqa amil var: Rusiyanın "Qazprom" şirkəti özünün sahibi olduğu "Qazprom Ermənistan" şirkətinə qazı 165 dollara satır, həmin şirkət isə Ermənistanda əhali və sənayenin əsas təhcizatçısıdır - yəni hər 1000 m3 üçün 165 dollar əhaliyə, sənayeyə satılan qiymət deyil. "Qazprom Ermənistan" əhaliyə qazı, təqribən, 2 qat artıq qiymətə satır, yəni bütün infrastrukrur əlindədir deyə, "Qazprom" özü-özünə qazı topdan ucuz satır, amma pərakəndə qiyməti baha olduğu üçün əsas qazancını o sahədən götürür".

Ekspertin sözlərinə görə, Rusiya Ermənistan üçün qaz qiymətlərini artırmağı düşünür: "Ona görə də rəsmi İrəvan alternativ qaz mənbələri axtarır, İrandan çəkilən boru xətti çox kiçik diametrə malikdir deyə, tam gücü ilə işləsə, ilə maksimum 2 milyard kubmetr qaz tədarük edə bilər və İran qazı Ermənistana daha baha satır, o qaz elektrik enerjisi istehsalı üçün istifadə edilir.

Bu kontekstdə Ermənistanın Azərbaycanda qaz almasına müsbət yanaşması maraqlı və doğru məsələdir - Azərbaycan çox rahat şəkildə (infrastruktur var, cari təmirə ehtiyac olacaq) Ermənistanı qazla təmin edə bilər. Ümumiyyətlə, Ermənistanla qarşılıqlı asılılıq yaradacaq layihələr nə qədər çox olsa, bir o qədər yaxşıdır, dayanıqlı sülhə təminat verən məsələdir. Bunun üçün isə son günlər baş verən pozitiv hadisələrin, delimitasiya-demarkasiya işlərinin sürətlənməsi, sülh müqaviləsinin tezliklə bağlanması əsas şərtdir. İrəvanın Bakıdan enerji asılılığı həmin ölkənin gələcəkdə "revanşist" ideyalarının qarşısını kəsən sədd ola bilər.

Ermənistan, nəhayət ki, mifik ideyalardan əl çəkib reallığı qəbul etməli, doğrudan da, tarixi Ermənistanı unudub, real sərhədlərinin təminatı haqqında düşünməlidir - bunun üçün tarixi, unikal şans yaranıb".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024

# Neft qiymətləri 100-130 dollara olarsa... - təhlil

## Ekspert: "Qlobal iqtisadiyyat buna dözəcək potensialda deyil"

**Daha bir beynəlxalq qurum neft qiymətlərinin kəskin artması ehtimalını yüksək qiymətləndirən proqnozla çıxış edib. Dünya Bankının proqnozuna görə, Brent markalı neftin orta qiyməti 2024-cü ildə 84 dollar, 2025-ci ildə isə 79 dollar olacaq. Bununla belə, Yaxın Şərqdəki münaqişə dünya bazarına xammal tədarükündə əhəmiyyətli fasilələrə səbəb olarsa, bu il Brent neftinin qiyməti bir barel üçün 100 dolları keçə bilər.**



Bu proqnoz Dünya Bankının (DB) "Əmtəə bazarlarına baxış" hesabatında əksini tapıb. Hesabata görə, ötən il inflyasiyanın zəifləməsində böyük rol oynayan xammal qiymətlərinin stabilləşməsi qlobal mərkəzi bankların dərəcələri sürətlə azaltmasını çətinləşdirəcək. Dünya Bankının ekspertləri hesab edirlər ki, Yaxın Şərqdə münaqişənin kəskinləşməsi son 2 ildə müşahidə olunan inflyasiyanın yavaşlamasını dayandıra bilər. Təşkilatın əmtəə qiymətləri indeksi 2022-ci ilin ortaları ilə 2023-cü ilin ortaları arasında təxminən 40 faiz azalıb, lakin göstərici keçən ilin ortalarından bəri sabit qalıb.

Dünya Bankının proqnozuna görə, geosiyasi münaqişələr güclənməsə, əmtəə indeksi 2024-cü ildə 3 faiz, 2025-ci ildə isə 4 faiz azalacaq. Bankın ekspertlərinə görə, əmtəə qiymətlərində belə bir azalma tempi əksər ölkələrdə hədəf səviyyələrdən yüksək olaraq qalan inflyasiyanın yumşaldılması üçün kifayət etməyəcək.

Dünya Bankının baş iqtisadçısı və baş vitse-prezidenti Indermit Gill deyir ki, qlobal inflyasiya hələ də məğlub olmayıb: "İnflyasiyanı azaldan başlıca proses - xammal qiymətlərinin ucuzlaşması divara dirənib. Bu isə o deməkdir ki, bünya mərkəzi banklarının faiz dərəcələri bu il və gələn il gözlənildiyindən yüksək olaraq qalacaq".

Onun sözlərinə görə, enerji sektoru üçün böyük bir şok son iki ildə inflyasiyanın qarşısının alınmasında əldə edilmiş irəliləyişlərin çoxunu ləğv edə bilər.

DB ekspertləri hesab edirlər ki, qızılın qiyməti 2024-cü ildə rekord səviyyədə qalacaq və 2025-ci ildə bir qədər azalacaq. Qızıl geosiyasi qeyri-müəyyənlik dövrlərində tez-tez bahalaşır və bu amil bir neçə inkişaf etməkdə olan bazar mərkəzi banklarının qiyməti metala güclü tələbi ilə birlikdə, 2024-cü il ərzində qızılı dəstəkləyəcək, icmalda qeyd olunur.

Dünya Bankı xəbərdarlıq edir ki, Yaxın Şərq münaqişəsinin gərginləşməsi təbii qaz, gübrə və ərzaq qiymətlərinin də bahalaşmasına səbəb ola bilər.

Təşkilatın əsas proqnozu isə dünya ərzaq qiymətlərinin 2024-cü ildə 6 faiz və 2025-ci ildə 4 faiz, gübrələrin qiymətinin isə müvafiq olaraq 22 faiz və 6 faiz azalacağını nəzərdə tutur.

Dünya Bankı həmçinin mis qiymətlərinin 2024-cü ildə 5 faiz artacağını və 2025-ci ildə stabilləşəcəyini, alüminium qiymətlərinin müvafiq olaraq 2 faiz və 4 faiz artacağını gözləyir.

Qeyd edək ki, bundan az əvvəl "Bank of America" da Yaxın Şərqdəki proseslərin neft qiymətlərini record həddə qədər bahalaşdıracağını açıqlayıb. Bank analitiklərinin fikrincə, İsraillə İran arasında böhran açıq müharibəyə keçərək bir neçə ay davam edərsə, dünya neft bazarında böyül volatilliyə səbəb olar: neftin qiymətini 130 dollara qədər yüksəldə bilər.

CNBC xəbər verir ki, "Bank of America"nın proqnozuna görə,hərbi əməliyyatlar uzun müddət davam edərsə və enerji infrastrukturuna təsir edərsə, biz "qara qızıl"ın bir barelinin qiymətinin 30-40 dollar artmasını gözləyə bilərik. Bu zaman "Brent" markalı neftin qiyməti ikinci rübdə 130 dollara, Amerika neftinin qiyməti isə 123 dollara yüksələ bilər. Bu ssenari İranın neft hasilatının müharibə səbəbindən gündə 1,5 milyon barel azalacağını nəzərdə tutur.

İrandan ixracın dayanması şəraitində OPEC+ razılaşmasının iştirakçıları hasilatı və ixracı ardıracaqlar. Bu isə dünyada neftə olan tələbatın artması fonunda ehtiyat hasilat güclərinin kəskin azalmasına gətirib çıxaracaq. Nəticədə 2025-ci ildə "Brent" markalı neftin qiyməti 100 dollar səviyyəsində qərarlaşacaq, ABŞ nefti isə 93 dollara satılacaq.

Qeyd edək ki, neft qiymətlərinin yüksək olması əsas gəlirləri bu xammalın ixracından formalaşan Azərbaycan üçün mühüm müsbət faktordur. Belə ki, son illərdə Azərbaycanın neft hasilatının 70 faizdən çoxunu təmin edən Azəri-Çıraq-Günəşli yatağında hasilat çox sürətlə düşür. Energetika Nazirliyinin məlumatına əsasən 2024-cü ilin yanvar-mart aylarında ölkədə ötən ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz az - 7,3 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft hasilatının 4,2 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin(azalma 10,6 faiz), 1,1 milyon tonu (kondensat) "Şahdəniz"in(dəyişməyib), 0,14 milyon tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 1,9 milyon ton təşkil edib(dəyişməyib).

Xatırladaq ki, 2023-cü ilin birinci rübündə Azərbaycanda 7,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib (azalma 7,2 faiz). Həmçinin neft hasilatının 4,7 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin (azalma 11,3 faiz), 1,1 milyon tonu (kondensat) "Şahdəniz"in (2022-ci il yanvar-mart aylarının səviyyəsində) payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 1,9 milyon ton (bütün meft hasilatının 24,7 faizi, 2022-ci ilin yanvar-mart aylarının səviyyəsində) təşkil edib.

İki həftə öncə AÇG yataqlar blokunda yeni platformadan neft hasilatına başlanıb. Yatağın işlənməsi üzrə layihənin operatoru bp şirkətinin verdiyi məlumata görə, ACE platforması və quyuları gündəlik 100 000 barelədək neft hasilatı gücündə layihələndirilib. ACE-dən hasilatın tədricən artaraq bu ilin sonuna gündə təxminən 24 000 barelə çatacağı gözlənilir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon bareledək neft hasil ediləcəyi proqnozlaşdırılır.

Yeni platformadan hasilatın başlanması yataqda hasilatın azalması tempini xeyli dərəcədə zəiflədəcək. Belə ki, indiyədək yataqda gündəlik hasilat ildə 35-40 min barel azalırdı. ACE-dən hasilat bu tempin 50 faizdən çox azalmasına səbəb olacaq. Platformadan gündəlik hasilat layihə gücündə 100 min barel nəzərdə tutulub. Yeni quyular qazıldıqca hasilat artacaq və 2026-cı ildə layihə gücünə - gündəlik 100 min barelə çatacaq. Bu, ildə 5 milyon ton deməkdir. ACE platformasından hasilatın başlanması ən azı 2030-cu ilədək hasilatın sabit qalmasını təmin edəcək. AÇG-də ildə 18 milyon ton civarında neft hasil olunurdu. Bu həcm ildə 1 milyon ton azalırdı, indi bu azalmanın sürətində ciddi yavaşlama baş verəcək. Bu şəraitdə yüksək qiymətlər Azərbaycanın neft ixracından əldə edilən gəlirlərində azalmanın minimuma düşməsinə səbəb olacaq.

Neft ixracındakı azalmanın minimuma düşməsi ölkənin əldə etdiyi gəlirlərdə də azalmanın qarşısını ala bilər. Maliyyə Nazirliyinin məlumatına əsasən bu ilin birinci rübündə Azərbaycanın dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları 4 milyard 562,6 milyon manat təşkil edib. Bu, proqnozla müqayisədə 216,7 milyon manat və ya 5,0 faiz, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 702,6 milyon manat və ya 18,2 faiz çoxdur.

Məlumata görə, 2024-cü ilin yanvar-mart aylarında dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 30,0 faizi və ya 1367,3 milyon manatını vergi orqanlarının xətti ilə daxilolmalar, 70,0 faizi və ya 3195,3 milyon manatını isə Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert təşkil edir.

Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə mədaxil olunan neft-qaz gəlirlərinin 48,8 faizi və 667,9 milyon manatını "Şahdəniz" yatağı üzrə mənfəət vergisi, 34,0 faizi və ya 464,8 milyon manatını Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilər, 17,2 faizi və ya 234,6 milyon manatını ABƏŞ-in mənfəət vergisi təşkil edir.

Qeyd edək ki, ötən ilin eyni dövründə Vergi Xidmətinin xəttilə büdcəyə neft-qaz sektorundan 2 milyard 284 milyon manat daxil olmuşdu. Bu isə cari ildə bu mənbədən büdcəyə daxilolmaların 40 faizdən çox azalması deməkdir.

2023-cü ilin birinci rübündə "Şahdəniz"dən 1 milyard 545,7 milyon manat mənfəət vergisi ödənmişdi. Cari ildə bu mənbədən vergi ödənişi 56,8 faiz azalıb.

Bu ilin yanvar-mart aylarında SOCAR-ın büdcəyə vergi ödənişləri 9,4 faiz azalıb - ötən il şirkət 545,7 milyon manat vergi ödəmişdi.

Azəri-Çıraq-Günəşli yatağından ödənilən mənfəət vergisi isə ötən ilki 225,2 milyon manata qarşı 4.2 faiz artım nümayiş etdirib.

İqtisadçı-ekspert Elman Sadıqovun "Yeni Müsavat"a dediyinə görə, Yaxın Şərqdə, xüsusilə İranla İsrail arasında problemlərin böyük müharibəyə keçməsi ehtimalı ilk əvvəldən yüksək deyildi: "Hadisələrin gedişi göstərir ki, bütün hədə-qorxulara rəğmən, hər iki dövlət genişmiqyaslı müharibəyə getməyin yaradacağı problemlərin fərqindədirlər. Amma hansısa səbəbdən hədlər keçilib, genişmiqyaslı müharibəyə gedilərsə, aydın məsələdir ki, yalnız nefr bazarında deyil, bütün xammal bazarlarında kəskin qiymət artımları baş verəcək. Bu halda neftin qiymətinin 100 dolları keçməsi realdır".

Ekspertin fikrincə, dünya iqtisadiyyatı neftin ifrat yüksək qiymətlərinə uzun müddət davam gətirmək potensialında deyil: "Yeni münaqişə olarsa, neft qiymətlərinin bir müddət ərzində 100 dollardan yuxarı, 130 dollara qalxması mümkündür. Lakin dünya iqtisadiyyatının belə qiymətlərə dözüm imkanı ən yaxşı halda 5-6 aydır. Buna görə də yüksək qiymətlərin uzun müddət qalmaması üçün ehtiyatlardan istifadəyə gediləcək. Hazırda dünyada dövlətlərin böyük neft ehtiyatları var və zəruri halda onların bazara çıxarılması, qiymətlərin aşağı salınması təmin ediləcək. Lakin müharibə iki dövlət arasından çıxaraq daha da genişlənərsə, proseslər fərqli məcrada gedəcək: bütün əmtəə bazarlarında qiymətlər kəskin artacaq, maliyyə bazarları tələtümlənəcək, qlobal ticarət zəncirləri pozulacaq. Bu isə qlobal şok effekti verəcək. Düşünürəm ki, nə birinci, nə də ikinci variant indiki halda real deyil"...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**



# Blinken Rusiyaya dəstəklə bağlı Çinə xəbərdarlıq edib

**"Əgər Çin Rusiyaya dəstəyin yaratdığı problemləri həll etməsə, bunu Vaşinqton öhdəsinə götürəcək".**

APA-nın "The Wall Street Journal"a istinadən xəbərinə görə, bunu ABŞ-nin dövlət katibi Antoni Blinken deyib.

O bildirib ki, rəsmi Moskvanın siyasətinin təşviqinə davam edərsə, Pekinin Avropa ilə münasibətləri əvvəlki səviyyədə olmayacaq.

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024

**Aprelin 25-də Naxçıvan Ali Məclisinin qərarı ilə MR-in Baş naziri Səbuhi Məmmədov işdən azad edilib. Başqa bir qərarla isə Ceyhun Cəlilov muxtar respublikanın yeni baş naziri təyin olunub.**

# Naxçıvanda rəhbər dəyişikliyi - tanınmış naxçıvanlıların əsas gözləntisi

Ceyhun Ramiz oğlu Cəlilov 1987-ci ildə Şahbuz şəhərində anadan olub. 2009-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr, 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin eyni ixtisası üzə magistratura, 2013-cü ildə isə Böyük Britaniya Krallığının Esseks Universitetinin Maliyyə ixtisası üzrə magistratura səviyyəsini bitirib. 2011-2013-cü illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin (indiki İqtisadiyyat Nazirliyi) Beynəlxalq Təşkilatlarla əməkdaşlıq şöbəsində, 2013-2021-ci illər ərzində “bp Caspian” şirkətinin Maliyyə departamentində müxtəlif vəzifələrdə çalışıb. 1 mart 2021-ci il tarixində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri vəzifəsinə, 13 avqust 2021-ci il tarixində isə İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib. 2023-cü ilin mart ayında Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təyin edilib.

Bəs tanınmış naxçıvanlıların baş nazir dəyişikliyi ilə bağlı əsas gözləntisi nədir? Bölgənin 1 nömrəli problemi nədən ibarətdir?

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, Naxçıvanda hansı vəzifədə olursa olsun, çalışan adamların kim olmasından daha çox hansı işi görəcəyi maraqlıdır: “Etimad göstərilən baş nazir Naxçıvanda doğulub, ciddi işlərdə çalışıb. Hesab edirəm ki, Naxçıvanın iqtisadi inkişafı ilə bağlı problemləri, onun potensialını bildiyindən ciddi addım atmaq imkanına malikdir. Naxçıvanda əsas məsələ yeni iş yerlərinin açılmasıdır. Orta və kiçik biznesin inkişafına dəstək verməkdir. Elə bir şərait yaratmaq lazımdır ki, Naxçıvandan xeyli adam Türkiyədə, Rusiyada çalışır, onlar geri qayıtsınlar. Naxçıvanın imkanları böyükdür. Mədən sənayesi inkişaf edərsə, iş yerləri açmaq mümkündür. İşləməyən zavodlar - qızıl, emal zavodlarını işə salmaqla xeyli iş yerini açmaq mümkündür. Aqrar bir bölgə olduğu üçün orada da kənd təsərrüfatı məhsullarının istehsalından sonra daxili bazarda xaricdən gələn məhsullarla rəqabətdə daxili məhsulun üstünlüyünü təmin etmək üçün gömrük tariflərinə baxmaqla stimul vermək olar. Bu məsələləri araşdırıb bir yol xəritəsi qurmaq imkanları var. Prezidentin nümayəndəsi təyin olunub, o da çox bacarıqlı, əlçatan biridir. Bu təyinat da uğurludur. Əsas olan yeni iş yerlərinin açılması, kənarda olan insanların geri qayıtmasını təmin etməkdir. Orta və kiçik biznesə imkanlar yaratmaq lazımdır. Zəngəzur dəhlizinin açılması ilə daha böyük yanaşma tələb olunacaq. Buradan çox böyük yüklərin keçməsi, ticari yolların kənarında qəsəbələrin salınması, müəssisələrin tikilməsi imkanları var. Yəqin ki, bunlar düşünülüb. Hər bir rayonda bir emal zavodu və bir soyuducu anbarın da olması vacibdir. İnsanlar məhsullarını toplayandan sonra il boyu dövlət təhvil alıb saxlasın ki, satılsın”.

Hüquq müdafiəçisi Novella Cəfəroğlu dedi ki, Naxçıvanda baş verən bütün dəyişiklikləri izləyir, yaxından tanış olur: “Naxçıvana getməkdən məhrum olmuşduq. Amma indi hamımız öz torpaqlarımıza sərbəst gedə bilirik. İndi Naxçıvanda mütləq dəyişikliklər olmalıdır. Çünki istəsələr də, istəməsələr də Zəngəzur yolu açılacaq. Naxçıvan bütün iqtisadi, ticari əlaqələrin başlandığı yer olacaq. Onun üçün də dəyişikliklər labüddür. Kim Naxçıvanın çiçəklənməsini, böyük şəhərlər sırasında olmasını istəyirsə, Naxçıvanda işləyərək ora yeniliklər gətirməlidir. İnanıram ki, Zəngəzur dəhlizi açılandan sonra böyük dəyişikliklər olacaq, bütün yollar Naxçıvandan keçəcək. Gərək sahibkarları, iş adamlarını ora cəlb etsinlər, biznes sahələri açılsın. İndidən hazırlıq görmək lazımdır. Kiçik və orta biznes inkişaf etdirilsin. İstərdim ki, orada yeni universitetlər açılsın. Bir sözlə, Naxçıvan böyüsün. Ən yaralı yerimiz Naxçıvanın Ermənistanla sərhəddə olmasıdır. Bundan dolayı təhlükəsizlik tədbirləri də gücləndirilməlidir”.

İqtisadçı ekspert Natiq Cəfərli isə öz sosial media hesabından yeni baş nazirlə bağlı bunları şərh edib: “Tələbə Baş nazir də gördük - Naxçıvan MR-in Ali Məclisinin qərarı ilə Ceyhun Cəlilov NMR-in yeni Baş naziri təyin olunub. Ceyhun müəllim hələ də oxuyur - İmtiyazlı İdarəedici Mühasiblər İnstitutunda (CIMA- Chartered Institute of Management Accountants) Strateji idarəetmə səviyyəsi üzrə təhsilini davam etdirir. Təqdirəlayiq addımdır, oxumağı deyirəm, amma Naxçıvan özəl yerdir, orada 37 yaşlı, ingilis/rus dilli ”şəhər uşağının" baş çıxartması müşkül işdir. Qarabağ məsələsinin tam həllindən sonra NMR-in statusunun qalmasına ehtiyac yoxdur, unitar ölkə məntiqi ilə bu status ləğv edilməlidir, Naxçıvan iqtisadi rayonu (Yeni yaranmış 14 iqtisadi rayonun biri də Naxçıvandır) inzibati-ərazi vahidinə çevrilməli, ora Prezidentin şəxsi nümayəndəsi dövlət işlərinə nəzarət üçün təyin edilməli, gündəlik idarəetmə müxanizmləri isə Naxçıvan ərazisindəki şəhər-rayonların seçilmiş Bələdiyyə başqanlarına həvalə edilməlidir. Yəni yenə gəlirik Konstitusiya dəyişikliklərinə - məncə, Ana Yasa islahatları artıq zərurətə çevrilib, çünki məsuliyyət və səlahiyyət “xətləri” tam bir-birinə qarışıb.

Məsələn, indi kim-kimə tabedir, kimin məsuliyyəti hara qədərdir, kimin səlahiyyəti harada başlayıb harada bitir - bu sualların cavabı aydın deyil. Bu isə ölkə üzrə bütün regionların idarəetmə sistemində boşluqların olmasını göstərir - bir daha deyim, bu gün ölkənin sosial-iqtisadi problemlərinin həlli yolu ancaq sistem və iradəetmə islahatlarından keçir, başqa yol yoxdur, bu addımsız problemlər həll olunmayacaq, bunun üçün isə Konstitusiya islahatları vacibdir..."

❑ Afaq MİRAYİQ, “Yeni Müsavat”





**Fərəc Quliyev:** “Elə bir şərait yaratmaq lazımdır ki, Türkiyəyə, Rusiyaya işləməyə gedənlər geri qayıtsınlar”
**Novella Cəfəroğlu:** “Naxçıvanın çiçəklənməsini istəyirsə, ora yeniliklər gətirməlidir”



## Hərbi prokuror: “Qəsdən adam öldürmə cinayətləri 50, özünü öldürmə hadisələri 40 faiz azalıb”

**2023-cü ilin birinci rübü ilə müqayisədə 2024-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 50 faiz, özünü öldürmə hadisələri 40 faiz azalıb.**

APA xəbər verir ki, bunu Respublika Hərbi Prokurorluğunda keçirilən kollegiya iclasında Baş prokurorun müavini - hərbi prokuror, Ədliyyə general-leytenantı Xanlar Vəliyev deyib.

Qeyd olunub ki, qəsdən adam öldürməyə cəhd cinayətləri isə ümumiyyətlə, qeydə alınmayıb.

Xanlar Vəliyev diqqətə çatdırıb ki, cinayət hadisələrinin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində Hərbi Prokurorluğun aidiyyəti qurumlarla birgə fəaliyyəti bundan sonra da uğurla davam etdiriləcək.



## Kobaxidze: “QHT-lər Gürcüstanda iki dəfə inqilaba cəhd göstəriblər”

**QHT-lər Gürcüstanda iki dəfə - 2021 və 2022-ci illərdə inqilaba cəhd göstəriblər.**

APA-nın Tbilisi müxbiri xəbər verir ki, bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze deyib.

O, Avropa Parlamentinin ötən gün Gürcüstana qarşı qətnaməsinin dəyərsiz olduğunu və şantaj mahiyyəti daşıdığını əlavə edib. Qeyd edib ki, Gürcüstan və Aİ arasında vizasız rejimin ləğvi, sabiq Prezident Mixeil Saakaşvilinin azadlığa buraxılması, Bidzina İvanişviliyə sanksiyaların tətbiq edilməsi kimi çağırışların heç bir dəyəri yoxdur.

Kobaxidze Gürcüstanın tərəfdaşlarının Gürcüstan rəsmiləri və xalqı ilə şantaj dili ilə danışmamalı olduğunu əlavə edib.

“Viza prosedurlarının sadələşdirilməsi hökumətin və Gürcüstan xalqının nailiyyətidir. Rəsmilərlə və Gürcüstan xalqı ilə belə şantaj dilində danışmaq yerinə, məsələn, ABŞ Gürcüstanda vizasız rejimin tətbiqinə çalışmalıdır”, - Kobaxidze deyib.

Qeyd edək ki, ötən gün Avropa Parlamenti hakim “Gürcü Arzusu” partiyasının “Xarici təsirin şəffaflığı haqqında” qanun layihəsi əleyhinə qətnamə qəbul edib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Rüsumu artırmaqla boşanmaların sayını azaltmaq mümkündürmü? - rəy

**Azərbaycanda nikahların sayı azalıb, boşanmalar artıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Bildirilib ki, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-fevral aylarında 6 739 nikah və 3 456 boşanma halları qeydə alınıb.**

## Hüquq müdafiəçisi: "Əvvəllər qadınlar ona görə dözürdülər ki, iqtisadi cəhətdən kişidən asılı idilər, indi..."



Qeyd edilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,6-dan 4,0-a düşüb, boşanmaların sayı isə 1,8-dən 2,1-ə qədər artıb.

Qeyd edək ki, nikahın pozulması üçün tələb olunan sənədlər sırasında dövlət rüsumunun ödənilməsi haqqında qəbz də var. Bunun üçün "Dövlət rüsumu haqqında" Qanunun 12.2.1-ci maddəsində göstərilən rüsum məbləği 20 manatdır. Əgər nikahın pozulması üçün məhkəməyə müraciət olunarsa, onda rüsumun məbləği dəyişir.

Lakin məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının qeydə alınmasına görə yeni rüsum müəyyənləşir. Bu barədə məsələ "Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, qanuna yeni maddə əlavə olunur. Yeni maddəyə əsasən, bu rüsumun 15 dollar olması təklif edilir.

Bunun da boşanma sayına necə təsir edəcəyi müzakirə yaradıb. Maraqlıdır, rüsumun artıb və azalması boşanma sayına təsir edə bilər?

Mövzu ilə bağlı Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a danışıb:

"Hesab etmirəm ki, rüsumun artırılması boşanmaq istəyənləri fikrindən çəkindirəcək. Boşanmaq istəyən həmin rüsum 2 dəfə artıq olsa belə ödəyib, boşanacaq. Artıq ailə institutu, ailə dəyərləri, tərbiyə aradan çıxmağa başlayıb. Biz bu dəyərləri yenidən geri qaytarmalı, ailə institutumuzu möhkəmləndirməliyik.

Əvvəllər evlənəcək gənclərin ailələri bir-birini araşdırır, bir-birinə uyğun olub-olmadığını müəyyənləşdirirdi, daha sonra gənclər ailə qururdu. Lakin indi evlənmək, ailə qurmaq çox asanlaşıb, gənclər özlərini avropalı kimi aparır.

Qızlarımız da işləyirlər, iqtisadi cəhətdən sərbəst olublar ailədə olan söz-söhbətə, problemlərə dözümlülük göstərmirlər. Bir çoxu da sərbəst yaşamaq istəyir. Əvvəllər qadınlar ona görə dözürdülər ki, iqtisadi cəhətdən kişidən asılı idilər, övladlarının gələcəyi, öz gələcəyinə görə bir çox problemlərə susqunluq nümayiş etdirirdilər. İndi isə əksər qadınlar kişilər qədər işləyib, evə pul gətirirlər və hansısa problem olduqda ona sinə gəlmək istəmir, rahatlıqla boşanma qərarını verir.

Həmçinin uşaq dünyaya gətirmək, onu böyütmək çətinləşib. Buna görə ailələr əksər hallarda bir uşaqla kifayətlənir, buna görə ölkəmizdə demoqrafiya da aşağı düşməyə başlayıb.

Beləliklə, həm sosial-iqtisadi problemlər, maddi sıxıntılar, gənclərin daha çox sərbəst yaşamaq istəyi, çətinliklərə dözümsüzlük boşanmaların artmasına təsir göstərir.

Bu məsələdə televiziyaların da təsiri az deyil. Bəzən görürük ki, 5-ci dəfə evlənən toy edir, o toyu efirdə verirlər, buna baxanlar da düşünürlər ki, onlar da bu cür tez-tez boşanıb, evlənə bilərlər, elin, cəmiyyətin qınağına tuş gəlməyəcək. Amma əvvəllər el qınağı var idi, insanlar boşanmağı böyük ayıb hesab edirdilər, ailələrini hər cür çətinlikdən qorumağa çalışırdılar. İndi isə bütün bunlar sıradan çıxıb".

Araşdırmalara əsasən ölkəmizdə ailələr daha çox 5 və 5-9 illik nikahdan sonra boşanırlar. 10 ildən artıq müddətdə evli qalan cütlər arasında boşanma hallarına daha az rast gəlinir. Bununla da birgə yaşama müddəti artdıqca, ailəni möhkəmləndirən səbəblər və ya faktorlar çoxalır, bağlar daha da möhkəmlənir. Bu səbəbdən də yuxarı yaş qrupunda boşanma halları azalır. Yaş aralığına baxsaq görərik ki, ən çox boşanma halları 18-24 və 25-29 yaşlarda baş verir.

Mütəxəssislər bildirir ki, boşanmanın ən çox yayılan səbəblərindən biri sosial-iqtisadi problemlərdir. Belə ki, xüsusən də uşaqlı ailələrdə maddi ehtiyacların qarşılanmaması tərəflər arasında mübahisələrə, narazılıqlara səbəb olur ki, bu da nəticədə bir çox hallarda boşanmaya qədər aparıb, çıxarır.

Həmçinin tərəflərdən birinin yaşadığı böhran və psixoloji problemlər də boşanmaya səbəb ola bilir. Bura narkotik maddədən istifadə, alkoqol, qumar və bu qəbildən olan digər səbəblər daxildir.

Ailədə uşağın olmaması da boşanmanın əsas səbəbləri sırasındadır.

Araşdırmalar da həmçinin onun göstərir ki, dünya ölkələrində boşanmalar daha çox inkişaf etmiş ölkələrdə qeydə alınır. Məsələn, boşanma göstəricisi Lüksemburqda 87 faiz, İspaniyada 65, Fransada 55, Rusiyada 51, ABŞ-da 46, Almaniyada 44, Böyük Britaniyada 42, Yeni Zelandiyada 42, Avstraliyada 38, Kanadada 38, Hindistanda 1, Çilidə 3, Kolumbiyada 9, Meksikada 15, Türkiyədə 22, İranda 22 faizdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Bütün ailəsini məhv edən Əhməd vərəsə ola bilməyəcək

## Hüquqşünas: "Mülki Məcəlləyə əsasən, ləyaqətsiz vəsiyyət üzrə vərəsə ola bilməz, qohumları da imtina etsə, ailəsinin mülkləri dövlətə veriləcək"



**İkisi uşaq olmaqla ailəsinin 5 üzvünü qəddarcasına qətlə yetirən Əhməd Əhmədovun hadisəni törədərkən anlaqsız olması barədə ekspertiza rəyindən sonra onun müalicəyə yönləndiriləcəyi qeyd olunurdu.**

İndi o hardadır? Məhkəməsi nə vaxt olacaq?

Müalicədən sonra onun nə vaxtsa sağalması və azadlığa çıxması mümkünmü? Yoxsa sağalsa da, sağalmasa da ömürlük xəstəxanada qalmalıdır? Hüquq nə deyir?

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a bildirib ki, şəxsin anlaqsız olduğu sübuta yetirilərsə, o, həbsə deyil, stasionar müalicəyə göndərilir: "Şəxsin anlaqlı olub-olmamasını müəyyənləşdirmək üçün ilkin olaraq kompleks məhkəmə ambulator psixiatrik və psixoloji ekspertizası təyin olunur. "Ekspertiza haqqında" qanuna əsasən, bunun üçün 1 ay müddət ayrılır. Əgər şəxs hansısa xəstəxanada qeydiyyatdadırsa, özünə və ya ətrafına narahatlıq verirsə, həmçinin dindirilməsi mümkün olmursa, o zaman ekspertiza stasionar qaydada aparılır".

Natiq Ələsgərov deyir ki, Cinayət Məcəlləsinin 21-ci maddəsinə görə, hadisəni törədərkən anlaqsız vəziyyətdə olan şəxs cinayət məsuliyyətinə cəlb oluna bilməz: "Yeni şəxsdə kəmağıllılıq, xroniki psixi pozğunluq müəyyən edilibsə, öz əməlinin faktiki xarakterini, ictimai təhlükəsini dərk etmirsə və bu barədə ekspertiza rəyi varsa, bu zaman o, cinayət məsuliyyətinə cəlb oluna bilməz". Bu halda şəxs məcburi müalicəyə yönəldilir.

Bəs belə olan halda ailənin mirası kimə verilməlidir?

Natiq Ələsgərov deyib ki, baş verən cinayətdən sonra Əhməd Əhmədovu ləyaqətli vərəsə hesab etmək mümkün deyil. Ona görə də onun yaxın qohumlarının əmlaka iddiası ola bilər: "Mülki Məcəlləyə əsasən, ləyaqətsiz vəsiyyət üzrə vərəsə ola bilməz. Qanun da onun vərəsə olmasına imkan vermir".

Natiq Ələsgərov deyir ki, Əhməd Əhmədovun qohumları vərəsəlikdən imtina etsələr, miras dövlətin hesabına keçirilməlidir.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**



# Elektron tibbi arayışı necə əldə etmək olar?

**Xəbər verdiyimiz kimi, mayın 1-dən tibbi arayışları elektron qaydada əldə etmək mümkün olacaq. Musavat.com xəbər verir ki, bu gün keçirilən tədbirdə elektron tibbi arayışı əldə etmək üçün təlimat təqdim edilib.**

Beləliklə, vətəndaşların elektron tibbi arayışı əldə etmələri üçün keçməli olduqları proses bunlardır:

Tibb müəssisəsinə ilkin müraciət;

Laborator analizlərin verilməsi;

Həkim qəbullarından keçmək;

Arayışın hazır formasının şəxsi kabinetdən və mobil tətbiqdən əldə edilməsi;

Təsdiqlənmiş arayışın etibarlılıq müddəti ərzində istənilən müəssisəyə təhvil verilməsi;

İstifadəçilər "E-TABİB" mobil tətbiqi və "kabinet.its.gov.az" veb-səhifəsinə daxil olaraq qeydiyyatdan keçməlidirlər. "Şəxsi kabinet"ə daxil olduqdan sonra QR kod vasitəsilə sağlamlıq və sürücülüyə yararlı olmaq haqqında tibbi arayışları elektron əldə edə biləcəklər. Elektron çap formanın üzərində olan QR kodu oxudaraq açılan veb-səhifədə arayışın qüvvədə olma müddətini və ümumi məlumatları yoxlayaraq PDF formatı yükləyə biləcəklər.

❑ **Nigar HƏSƏNLİ, Musavat.com**

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024

**ABŞ Konqresi bu həftə, nəhayət, Ukraynaya 61 milyard dollarlıq yarım paketini təsdiqlədi. Eyni zamanda, Rusiyanın dondurulmuş 6 milyardlıq aktivlərini Kiyevə vermək haqda da qərar çıxardı.**

# Rusiya və Qərbə "heç-heçə" təklif edildi - Ukrayna müharibəsi bitir?

## "Sülh müqaviləsi imzalansa, bu, Kiyevin xeyrinə olar, çünki..."

İndi hamını ən çox düşündürən sual budur: böyük Amerika dəstəyi Ukrayna üçün nə deməkdir, bu, müharibənin sonunu və ya ədalətli sülhü yaxınlaşdıra biləcəkmi?

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 24-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda çıxışı zamanı Rusiya ilə Ukrayna arasında müharibə kimi mühüm məsələyə də toxunub. Dövlət başçısı bildirib ki, o, Rusiya-Ukrayna müharibəsinin necə bitəcəyini bilmir, kim bilirsə, bəlkə də Nobel Sülh Mükafatına namizəd göstərilə bilər.

"Bütün bunların necə bitəcəyini heç kimin bildiyini düşünmürəm. Bəlkə belə demək daha yaxşıdır: bu nə vaxt bitə bilər? Çünki gec-tez müharibələr başa çatır. Təcrübəmizə əsaslanaraq öz fikrimi deyə bilərəm. Yəqin ki, bilməyiniz maraqlı olar ki, 1994-cü ilin mayında atəşkəs imzalanandan sonra müharibə dərhal dayanmadı. Rusiya və Ukrayna müharibənin aktiv fazasına son qoymağa razılaşsa, oxşar şey ola bilər. Amma bu, müharibənin bitməsinə zəmanət vermir".

Belarus prezidenti Aleksandr Lukaşenko isə savaşın bitməsi üçün Qərbə və Rusiyaya "heç-heçə" təklif edib.

Sitat: "Bu gün Ukraynaya sülh lazımdır. İndi dinc danışıqlar üçün ən əlverişli vəziyyət yaranıb. Biz İstanbul razılaşmalarından başlaya bilərik. Bütün hərbi qulluqçular, Qərbin xüsusi xidmət orqanlarının rəhbərləri, siyasətçilər və dövlət başçıları artıq açıq şəkildə deyirlər ki, Putinin qələbəsinə yol vermək olmaz. Əgər bunun mümkün olmadığını israr edirsinizsə, o zaman danışıqlar zamanıdır. Bu mərhələdə heç-heçə oynayın".

Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı hesab edir ki, bu yardım yetərli deyil: "ABŞ-ın Ukraynaya 61 milyard yardım ayırması Ukraynanın müharibədə qələbəsini və ərazi bütövlüyünü bərpa etməsini təmin etməyəcək. Bu, birmənalı belədir. Bu yardım Ukraynanın kapitulyasiyasının qarşısını almaq, onu müharibəni bir müddət də davam etdirməsinə inandırmaq, ruhlandırmaq üçündür, yardımın həcmi və ayrılan vəsaitin qarşılığında göndəriləcək silah-sursat qələbə üçün yetərli deyil. Ukraynanın qələbəsi üçün ABŞ arsenalında olan ən müasir silahları, ikinci dünya müharibəsində SSRİ-yə verdiyi kimi, Ukraynaya verməlidir. Həm də Ukraynanın istədiyi miqdarda. Hələ mən ikinci cəbhənin açılmasını demirəm. Hələlik görünən odur ki, kollektiv Qərb hansısa mərhələdə Ukraynanı ciddi güzəştlərə məcbur edəcək. Ukraynada çoxları artıq bunu anlayır. Və dəfələrlə Ukrayna rəsmiləri bəyan edib ki, NATO-nun Rusiyaya güzəştə getməsi təklifini qəbul etməyəcək. Cənab Prezident İlham Əliyev tamamilə doğru qeyd edir ki, Rusiya- Ukrayna müharibəsinin necə bitəcəyini heç kim bilmir. Müharibə baş verirsə, qısa müddətdə bitmir. Bunun üçün zaman tələb olunur. Ancaq müharibənin ağır nəticələrinin aradan qaldırılmasına ehtiyac yaranır. Hətta atəşkəs olunandan sonra da tam şəkildə əməl olunmur. Bu gün həqiqətən də ən çox sülh Ukraynaya lazımdır. Xalq zəlilin gününə qoyulub. Dünyanın ən çox qaçqını, 19 milyon insan qaçqın düşüb. Yüz əlli min insan həyatını itirib, şikəst olub, 200 min kv.km ərazi minalanıb, bu gün müharibə dayansa Ukraynanın infrastrukturunun bərpası üçün 4 trilyon dollar vəsait lazım olacaq, kim verəcək bu vəsaiti? Nə qədər tez müharibə dayansa, Ukrayna üçün böyük qazanc deməkdir. Bu mənada Aleksandr Lukaşenko haqlıdır. Dinc danışıqlar yolu ilə müharibəni saxlamalıdılar. Doğru qərarlar qəbul olunmalıdır. Ayrılan 61 milyard dolları Ukrayna silah-sursata deyil, Ukraynanın bərpasına yönəltməlidir".

Hərbi ekspert Səxavət Məmməd Rusiya sənayesinin durmadan inkişaf etdiyini söylədi, Onun sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi elə bir həddə gəlib ki, Qərb də ediləcək yardımların nəticə verəcəyini düşünmür: " Ukrayna yardımlar üçün çağırışlar edir, Qərb düşünür, Rusiya isə sahədə dayanmaq bilmir, hər keçən gün hücum tempini, raket zərbələrinin sayını artırır. Rusiya ilə bağlı bütün proqnozlar səhv çıxdı. Qərb mediası yazırdı ki, Rusiyanın raketləri bitmək üzrədir, Rusiya iqtisadiyyatı dayana bilməyəcək, Rusiya ordusundan kütləvi qaçışlar olacaq. Reallıqda isə hər şeyin tam əksini gördük. Rusiya bütün silah sənayesini işə salmağı bacardı. Artıq silah sənayesi elə bir həddə gəlib çatıb ki, aya 20 tank istehsal edirlər. Hazırda Ukrayna ərazisinə idarə olunan FAB-1500 bombaları atırlar. Bu bombaların çəkisi 1,5 tondur. Məlum olur ki, ruslar FAB-3000 bombalarının da kütləvi istehsalına başlayıblar. Rusiya döyüşə gedənlərə elə maaş verir ki, nəinki döyüşdən yayınanlar var, əksinə döyüşə can atanlar daha çoxdur. Müharibədə elə bir vəziyyət yaranıb ki, qısa zamanda rusları dayandıra biləcək məsələlər, hansısa razılıq əldə olunmasa, Rusiya işğal etdiyi ərazilərin sahəsini genişləndirəcək. Ruslar hücumlarını davam etdirsə də, onlar üçün əsas hücum iyun ayında başlayacaq. Ukrayna tərəfi ancaq və ancaq müdafiə oluna bilər. NATO baş katibi belə bildirdi ki, Ukraynaya F-16-lar verilsə belə, döyüşün gedişinə təsir etməyəcək. Ona görə də, indiki məqamda müharibəni dayandırmaq variantı üzərində iş aparılır. Rusiya Ukraynanın böyük bir hissəsini işğal edib. Hesab edirəm ki, Rusiya ilə sülh müqaviləsi imzalansa, bu Ukraynanın xeyrinə olar, çünki bir qədər də müharibə uzansa, kapitulyasiyaya da gedə bilərlər. Ukraynanın bu vəziyyətə düşməsinin səbəbkarı Qərb oldu. Çünki onlar ya Rusiyanın potensialını düzgün hesablamadı, ya da özləri bunda maraqlı oldu. Zamanında Ukraynaya silahlar, hava hücumundan müdafiə sistemləri, raketlər verilsə idi, bəlkə də müharibə bu həddə gəlib çatmazdı".

Tanınmış siyasət yazarı Kənan Rövşənoğlunun fikrincə, Qərbin Putin planı baş tutmadı: "Qərb yardımlarının Ukrayna cəbhəsində vəziyyəti köklü şəkildə dəyişəcəyini zənn eləmirəm. Bu ən yaxşı halda müharibəni bir qədər də uzatmağa xidmət edəcək. Çünki Ukrayna sürətlə zəifləyir, enerji və digər həyati əhəmiyyətli infrastrukturu məhv edilir. Yəni ruslar tədricən Ukraynanı yormağa çalışırlar. Yəni cəbhədə müharibəni dayandırmaq üçün xüsusi bir vəziyyət yoxdur. Rusiya daxilində də müharibənin hər hansı təsiri və ya hakimiyyət daxilində parçalanma yoxdur. Məsələn, mümkün idi ki, cəbhədə uğursuzluqlar hakimiyyət daxilində və ictimai rəydə savaşı dayandırmaq çağırışını artırardı və nəticədə müəyyən bir dövrdən sonra hakimiyyət müharibəni dayandırmağa gedərdi. Yeri gəlmişkən, müharibənin ilk aylarında bu element var idi, İstanbul razılaşması faktiki olaraq Rusiya hakimiyyətinin geri çəkilməsi idi. Ancaq o zaman Qərb buna razı olmadı, indi isə Rusiya artıq buna getmək istəmir. Görünür, Qərb Putini rüsvayçı məğlubiyyətə sürükləmək istəyirdi, amma olmadı. İndi isə vəziyyət fərqlidir. Dediyim kimi, yardımlar sadəcə müharibəni uzatmağa xidmət edəcək. Açığı mən o qədər əmin deyiləm ki, Rusiya Lukaşenkonun dediyi "heç-heçə"yə razı olacaq, ya da bu heç-heçənin formatı necə olacaq?"



❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**



### Şoyqu: "NATO qoşunları Rusiya sərhədlərinə yaxınlaşır"

**NATO qoşunları Rusiya sərhədlərinə yaxınlaşır. "Report" xəbər verir ki, bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ölkələrinin müdafiə nazirlərinin görüşündə deyib.**

O bildirib ki, bu, hərbi təhlükəsizliyə əlavə təhdiddir: "İndi deyirlər ki, əgər Rusiya Ukraynada dayandırılmasa, Alyans ölkələrinə hücum edəcək. Halbuki, bizə yaxınlaşan onlardır".

Nazirin sözlərinə görə, Rusiya başqa dövlətlərin işlərinə qarışmamaq siyasətinə sadiqdir: "Eyni zamanda Sovet İttifaqının dağılmasından sonra NATO-nun Şərqə doğru genişlənməsi davam edir. Amma 1990-cı illərdə bizə bunun baş verməyəcəyi vəd edilmişdi".

YENİ MÜSAVAT
N 72 (8445) 27 aprel 2024

# Azərbaycanın əsas yatağından neft hasìlatı qìsmən dayandırıldı

**Azərbaycanın əsas neft hasil edilən "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yatağında Dərinsulu Günəşli platformasında hasilat dayandırılıb.**



Musavat.com yatağın işlənməsi layihəsinin operatoru BP şirkətinə istinadən xəbər verir ki, platformada hasilat aprelin 25-dən 15 günlük müddətə illik iş proqramının bir hissəsi olaraq profilaktik işlər həyata keçirilməsi üçün dayandırılıb.

Profilaktika proqramı çərçivəsində müxtəlif layihələr, o cümlədən ventillərin dəyişdirilməsi, radioizotop mənbələrin dəyişdirilməsi və vacib təmir işləri həyata keçiriləcək:

"Belə proqramlar normal əməliyyatların bir hissəsidir və onlar planlaşdırılmış şəkildə həyata keçirilir. Bu proqramın planlaşdırılması işlərinə 2023-cü ildən başlanıb və proqram üzrə həyata keçirilən işlər 2024-cü ilin illik iş proqramı və büdcəsinə daxil edilib. Platformanın müvəqqəti dayandırılması həmçinin bu ilin hasilat planına da daxil edilib".

Şirkət bildirir ki, AÇG-nin digər platformalarından, həmçinin "Şahdəniz" yatağının platformalarından hasilat, Səngəçal terminalında əməliyyatlar, Bakı-Tiflis-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri (CQBK və CQBKG) vasitəsilə ixrac əməliyyatları normal davam edir:

"Bu planlaşdırılmış proqram obyektlərin uzunmüddətli təhlükəsiz, etibarlı, bütöv şəkildə, ətraf mühitə ziyan vurmadan istismarının vacib bir hissəsidir və əsasən elə profilaktik təmir və modifikasiya işlərindən ibarətdir ki, həmin işləri yalnız obyektin fəaliyyətini müvəqqəti dayandıraraq həyata keçirmək mümkündür".

❑ **Musavat.com**

# Musiqi və incəsənət məktəblərinə şagird qəbulu ilk dəfə elektron qaydada aparılacaq

**Mayın 6-dan 31-dək Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə şagird qəbulu ilk dəfə olaraq my.culture.az vahid şəxsi kabineti vasitəsilə aparılacaq.**




Mədəniyyət Nazirliyindən APA-ya verilən xəbərə görə, bununla da təhsilalanlar əlavə vaxt sərf etmədən və təhsil müəssisələrinə getmədən şəxsi kabinet üzərindən qeyd olunan xidmətdən yararlana biləcəklər. Bu da vətəndaş məmnuniyyəti, şəffaf və çevik ünsiyyətin təmin edilməsində önəmli rol oynayacaq.

Təhsilalanın müraciətinin nəticəsi, habelə imtahanın vaxtı və yeri ilə bağlı namizədin şəxsi kabinet və elektron poçt ünvanına bildiriş göndəriləcək.

Qeydiyyatdan uğurla keçmiş namizədlər iyunun 5-dən 15-dək əyani şəkildə keçiriləcək qəbul imtahanlarında iştirak edə biləcəklər. Bütün imtahanlar yekunlaşdıqdan sonrakı 3 gün ərzində namizədin şəxsi kabinetinə nəticəyə dair bildiriş göndəriləcək. Uğur qazanmış təhsilalanlar 3 gün müddətində sistem üzərindən təhsil alacaqlarını təsdiq etməlidirlər.

Məlumat üçün bildirək ki, Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərində tədrisin müasir tələblərə uyğun qurulması istiqamətində sistemli iş aparılır. Təhsilalanların elektron qəbulu prosesində ən vacib məqam rəqəmsallaşma, ölkədaxili informasiya sistemləri ilə inteqrasiya və əlçatan xidmət tələblərinə cavab verməkdir. Son dövrlərdə Mədəniyyət Nazirliyi sistemində həyata keçirilən islahat tədbirləri, hər şeydən əvvəl bu sahədə şəffaflığın və effektiv idarəetmənin təmin edilməsi üçün geniş imkanlar yaradır. Bu istiqamətlərdən biri kimi Mədəniyyət Nazirliyi sistemində bütün xidmətlərin my.culture.az vahid şəxsi kabinet üzərindən inteqrasiyası uğurla icra olunur ki, bu da cəmiyyətlə daha çevik və hərtərəfli kommunikasiyanın qurulmasında vacib əhəmiyyət daşıyır.

Daha ətraflı məlumatı təqdim olunan tez-tez verilən sual-cavab bölməsi vasitəsilə əldə edə bilərsiniz.



## Tibb bacısı özünə vurduğu antibiotik iynəsindən şoka düşüb

**Şəkidə tibb bacısı antibiotikdən şoka düşüb.**

APA-nın Şimal-qərb bürosunun əldə etdiyi məlumata görə, dünən axşam saat 17 radələrində rayonun Kiş kənd sakini 1975-ci il təvəllüdlü Gülcöhrə Ziyad qızı Allahverdiyeva hüşsuz vəziyyətdə Şəki Rayon Mərkəzi Xəstəxanasına (RMX) gətirilib. Müayinə zamanı G. Allahverdiyevanın özünə antibiotik iynəsi vurduqdan bir qədər sonra vəziyyətinin pisləşərək şoka düşdüyü məlum olub.

G.Allahverdiyeva Kiş kənd tibb məntəqəsində tibb bacısı kimi çalışır.

Faktla bağlı araşdırma aparılır.



## Bakıda köhnə avtobuslar yığışdırılır

**Bakı şəhərində avtobus parkını əsaslı şəkildə yeniləmiş yeganə özəl daşıyıcı şirkət bizik.**

Musavat.com bildirir ki, bu sözləri Axar.az-a açıqlamasında "Xaliq Faiqoğlu MMC"nin mətbuat katibi Nizam Rzayev sərnişindaşıma ilə bağlı yeni qanunların müzakirəsi ilə bağlı deyib.

"Şirkətimizin istismarında olan avtobusların böyük əksəriyyətinin istehsal tarixi 10 ildən azdır. Bakı şəhərində avtobus parkını əsaslı şəkildə yeniləmiş yeganə özəl daşıyıcı şirkət bizik. Sərnişindaşıma üçün qoyulan kriteriyalarda rəng məsələsi də var ki, bu da təyin edilmiş vaxtdan sonra istismara veriləcək nəqliyyat vasitələrinə şamil edilir. İli köhnə olan avtobusların da tədricən yenilənməsi nəzərdə tutulur. Bu istiqamətdə şirkətimiz layihələr həyata keçirir", - Rzayev bildirib.

Qeyd edək ki, martın 28-də Nazirlər Kabinetinin təsdiqlədiyi "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"ə əsasən, müntəzəm şəhərlərarası (rayonlararası) sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin rəngi ağ, şəhərdaxili (rayondaxili) sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələri qırmızı, müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarında istifadə olunan elektrik mühərrikli avtonəqliyyat vasitələri isə yaşıl rəngdə olmalıdır.

Qərar 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

## Bakıda körpə eyvanda anasının qucağından düşərək ölüb

**Prokurorluq Bakıda körpənin mənzilin eyvanından düşərək ölməsi faktını araşdırır.**

APA xəbər verir ki, aprelin 26-da saat 8 radələrində paytaxtın Sabunçu rayonu, Ramana qəsəbəsində yerləşən mənzilin eyvanından 4 aylıq körpə qız uşağının (09.12.2023-cü il təvəllüdlü) anasının qucağından yıxılıb yerə düşərək ölməsi faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT

Son səhifə

N 72 (8445) 27 aprel 2024

Aprel

## Bunları bilirsinizmi?

* Kitab oxuyarkən hər saniyədə 70 hüceyrə ölür.
* Həbsxanalarda istifadə olunan elektrik stulu (ölüm hökmü verilən məhkumlar üçün) bir stomatoloq tərəfindən icad olunub.
* Stalinin 70 illiyinə bağışlanmış hədiyyələrin siyahısı elə uzundur ki, onu qəzetlər 1949-cu ilin dekabrından 1953-cü ilin martınadək dərc etməli olmuşdular.
* İsti su soyuq sudan daha ağırdır.
* Həşəratlar yatmır.
* V.Harvey qan dövranı haqqında kiçik kitabçası üzərində düz 13 il işləmişdir.
* Bambuk dünyanın ən sürətlə böyüyən bitkisidir, bir gündə 90 sm-ə qədər uzanır.
* Bir insan həyatı boyunca təxminən 22 kiloqram dəri itirir.
* Asqırarkən ürəyiniz də daxil olmaqla bütün orqanların funksiyaları dayanır.
* Dünyada baş verən müharibələrin əsas səbəbi təbii ehtiyatları əldə etməkdir.
* Ən çox Oskar qazanan filmlər: "Ben Hur", "Titanik" "Üzüklərin kralı: Kral qayıdır" filmləridir. Hər biri 11 Oskar mükafatçısı olub. "Ben Hur" bu Oskarları 12 nominasiyadan, "Titanik" 14, "Üzüklərin kralı: Kral qayıdır" filmi isə elə 11 nominasiyadan əldə ediblər.
* Timsahlarda rəng korluğu var.
* Yer fındığı dinamitin tərkib hissələrindən biridir.

# Arıqlamaq istəyənlər bu meyvələrdən imtina etməlidir



**Banan, manqo və qovun sağlam və dadlı qidalardır, lakin arıqlamaq istəyənlər üçün əks göstərişdir. Bu barədə diyetoloq Maykl Mosli xəbərdarlıq edib. Mütəxəssis arıqlayarkən ilk növbədə banandan imtina etməyə çağırıb, çünki bir bananda təxminən üç xörək qaşığı şəkər var. "Ananas, qovun və manqo kimi bəzi digər tropik meyvələrdə də fruktoza az deyil. Arıqlayanlar da onlardan uzaq durmalı və ya kiçik hissələrdə istehlak etməlidirlər", - deyə Mosli əlavə edib.**

"Şirin meyvələr əvəzinə, Mosli rasiona daha çox təzə giləmeyvə əlavə etməyi tövsiyə edib. Onun sözlərinə görə, onlar orqanizm üçün faydalı maddələr və vitaminlərlə zəngindir və tərkibində şəkər demək olar ki, yoxdur. Məsələn, bir fincan moruqda cəmi beş qram şəkər var", - ekspert qeyd edib.

Bundan əlavə, diyetoloq arıqlayan insanlara yağlı və duzlu qidalardan sui-istifadə etməməyi, həmçinin kolbasa və çips kimi emal olunmuş qidalardan uzaq durmağı tövsiyə edib.

## Bu xəstəliklər xərçəngə çevrilə bilər - xəbərdarlıq



**Bağırsaq polipləri, qastrit, xroniki gedişdə anal çatlar xərçəngin inkişafına səbəb ola bilər. Bu barədə "FederalPress"ə onkoloq-ginekoloq Yekaterina Timofeyeva məlumat verib. "Bu, məsələn, daimi iltihabla baş verir. Bunun sayəsində hüceyrələr daim yenilənir, bu da onlarda parçalanma və xərçəng hüceyrələrinin yaranması riskini artırır.**

Xərçəngdən əvvəlki vəziyyətlər məcburi (müalicə olmadan mütləq xərçəngə çevriləcək) və fakultativ (onlar həmişə xərçəngə çevrilmir) bölünür. Bunlardan birincisinə ailəvi kolon polipozu, ağır servikal displaziya, həmçinin Queyre eritroplaziyası, Dubreuil melanozu, Boven xəstəliyi və həqiqi leykoplakiya daxildir.

Tez-tez, lakin həmişə deyil, onlar xərçəngə çevrilirlər: mədə xorası, atrofik qastrit, anal çatlar, qocalıq keratozları", - onkoloq deyib."Odur ki, xroniki xəstəliyiniz varsa, ixtisaslaşmış həkimə müraciət etmək və müayinələrdən keçmək vacibdir. Məsələn, bağırsaqlardakı poliplər dövri kolonoskopiya tələb edir. Çünki bu, xərçəngin inkişafının qarşısını alacaq və ya müalicənin ən təsirli olduğu erkən mərhələdə aşkar edəcək", - həkim vurğulayıb.

Xərçəngin qarşısının alınmasının ümumi qaydalarına da əməl etməlisiniz: SPF qoruyucu kremlərdən istifadə edin, solaryuma baş çəkməyin, idmanla məşğul olun, aktiv həyat tərzi keçirin və optimal çəkini qoruyun.

## Yeniyetmələrin siqaret aludəçiliyi təhdid yaradır



**11-15 yaşlı yeniyetmələr arasında alkoqol və elektron siqaret istifadəçilərinin sayı narahatlıq doğuran həddə artıb. Dövlətlər bunun qarşısını almaq üçün konkret addımlar atmalıdır. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa bölməsinin rəhbəri Hans Kluge bildirib. Kluge qeyd edib ki, yeniyetmələr arasında zərərli maddələr istifadə istər Avropa, istərsə də ondan kənarda ictimai səhiyyəyə ciddi təhdid yaradır. 15 yaşlı gənclərin 57%-i artıq alkoqol qəbul edib, elektron siqaret adiləşir.**

ÜST rəsmisi vəziyyətdən çıxış yolu kimi qiymətlərin artırılmasını, satış yerlərinin məhdudlaşdırılmasını və aromatizatorların qadağan edilməsini təklif edib.

## Bu qan qrupuna aid olan insanlarda insult riski yüksəkdir

**A (II) qan qrupunda olan insanların 60 yaşından əvvəl insult keçirmə riskinin digər qan qruplarına nisbətən daha yüksək olduğu açıqlanıb. Bu barədə Merilend Universitetinin tədqiqatçıları araşdırma aparıblar. Tədqiqatçılar insult keçirmiş təxminən 17.000 və insult keçirməyən təxminən 600.000 insanı əhatə edən 48 genetik tədqiqatdan məlumat toplayıblar. Alimlər vurğulayıblar ki, A (II) qan qrupunda olan insanların 60 yaşından əvvəl insult keçirmə riski digər qan qruplarına nisbətən 16 faiz yüksəkdir.**

## Yerin maqnit sahəsinin ən qədim izləri aşkarlanıb



**Oksford Universitetinin və Massaçusets Texnologiya İnstitutunun alimləri Yerin maqnit sahəsinin mövcudluğunun ən qədim təkzibedilməz izlərini aşkar ediblər. Araşdırmanın nəticələri "Journal of Geophysical Research Solid Earth" jurnalında dərc olunub. Geoloqlar Qrenlandiyadakı İsua formasiyasından dəmir tərkibli qədim süxurların ardıcıllığını təhlil ediblər. Məlum olub ki, 3,7 milyard il əvvələ aid süxurlar maqnit sahəsinin gücü müasir maqnit sahəsi (30 mikrotesla) ilə müqayisə oluna bilən ən azı 15 mikrotesla çatdıqda əmələ gəlib.**

Nəticələr bütöv qaya nümunələri əsasında əldə olunmuş Yerin maqnit sahəsinin gücünün ən qədim qiymətləndirilməsini təmin edərək, ayrı-ayrı kristallardan istifadə edilən əvvəlki tədqiqatlardan daha dəqiq və etibarlı məlumat verir.

Maqnit sahəsinin gücü nisbətən sabit qalmış kimi görünsə də, günəş küləyinin keçmişdə əhəmiyyətli dərəcədə güclü olduğu məlumdur. Bu, Yer səthinin günəş küləyindən qorunmasının zaman keçdikcə artdığını göstərir ki, bu da həyatın qitələrə və okeanlardan kənara çıxmasına şərait yarada bilərdi.

## Amerikalılar kütləvi şəkildə "iPhone" almaqdan imtina edirlər - səbəb



**2024-cü ilin birinci rübündə ABŞ-də aktivləşdirilmiş smartfonların yalnız 33 faizi "iPhone"ların payına düşüb ki, bu da 2017-ci ildən bəri "Apple"ın ən pis göstəricisidir. Bu, "Consumer Intelligence Research Partners"in (CIRP/İstehlakçı İntellektin Tədqiqat Qrupu) apardığı araşdırma nəticəsində məlum olub.**

CIRP hesab edir ki, "Apple" əsas iki səbəbə görə eniş yaşayır. Birincisi, "iPhone"un keyfiyyətinin yaxşılaşdırılmasıdır ki, bu da cihazların istifadə müddətini artırıb. İkincisi, innovasiyaların tətbiqi tempinin yavaşlaması və ümumilikdə onların əhəmiyyətinin azalmasıdır. Qeyd olunur ki, amerikalıları "Apple" smartfonlarını almağa sövq edən yeni funksiyalar "iPhone"da getdikcə daha az yayılır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114

SAYI: 1.500